RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 155 (9322) 26 İYUL 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






# Azərbaycandan keçən yollar dünyaya fayda və sabitlik gətirir

## Prezident İlham ƏLİYEV: "Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz"

Bu gün Azərbaycanın nəqliyyat infrastrukturu artıq yüksək beynəlxalq standartlara cavab verir. Hazırkı geosiyasi vəziyyətdə Trans-Xəzər marşrutu Mərkəzi Asiya ölkələri üçün ən əhəmiyyətli marşruta çevrilib. Əslində, bu, "Bir kəmər, bir yol" layihəsinin bir hissəsidir. Məlumdur ki, Avropaya və əks-istiqamətdə yüklərin daşınması üçün Mərkəzi Asiya ölkələrinin seçimi o qədər də geniş deyil. Bu səbəbdən də həmin marşrut çox əhəmiyyətlidir. Məsələn, Çindən Avropaya göndərilən mallar dənizlə mənzilbaşına orta hesabla 36 günə çatır. Trans-Sibir marşrutu ilə bu, 20 gün vaxt aparır. Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edilməklə Orta dəhlizlə isə buna cəmi 12 gün kifayətdir.

İndi Azərbaycan ölkəmizdən Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində fəal şəkildə çalışır. Respublikamızın ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycandan təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, Zəngəzur dəhlizi də işə salınacaq. Bütün bunlar isə əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda Azərbaycan ərazisindən daşımalar həmçinin Gürcüstanın dəniz limanından keçəcək.

Dövlətimizin başçısı vurğulayıb ki, daşımalarda əməkdaşlıq bütün ölkələr üçün faydalı olacaq, bu işlər onların əlaqələrini gücləndirəcək: "Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq, inteqrasiya olacaq. Biz dəhliz boyunca bir çox istehsal sahələrini yaratmağı planlaşdırırıq və sadəcə, tranzit ölkə olmaq istəmirik. Geosiyasi baxımdan, bu, yaxşı haldır, yəni əlavə gəlir əldə etmək olar, biz Azərbaycanda böyük sənaye zonalarını yaratmaq istəyirik. Əslində, bu istiqamətdə irəliləyirik. Hesab edirəm ki, bu ay açılmış və artıq fəaliyyətə başlamış Ələt Azad İqtisadi Zonamızda istehsalatla məşğul olmaq həmçinin Çin şirkətləri üçün cəlbedici ola bilər. Əslində, təsəvvür etdiyinizdən də geniş fürsətdir".

→ 4

## Marianna Vardinoyannisin ailəsinə

Görkəmli ictimai xadim, parlaq şəxsiyyət Marianna Vardinoyannisin vəfatı xəbərini sonsuz kədər hissi ilə qarşıladıq.

Marianna Vardinoyannis dərin məzmunlu və şərəfli ömür yolu keçərək, insanlıq və bəşəriyyət naminə nəcib əməlləri, bəşəri dəyərlərin təşviqi, çoxşaxəli humanitar və xeyriyyəçilik fəaliyyəti ilə dünyada böyük nüfuz və ehtiram qazanmışdı.

Yüksək insani keyfiyyətləri özündə cəmləşdirən Marianna Vardinoyannis Azərbaycanın əsl dostu idi. Onun Azərbaycan və Yunanıstan xalqları arasında dostluq əlaqələrinin inkişafında böyük xidmətləri var idi. Məhz buna görə o, Azərbaycan Respublikasının "Dostluq" ordeni ilə təltif olunmuşdur.

Bütün həyat və fəaliyyətini uca amallara həsr etmiş səmimi və xeyirxah insan Marianna Vardinoyannisin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Bu ağır itkinin acısını bölüşür, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2023-cü il*

## Vardis Vardinoyannis ailəsinə

Səmimi dostum, əziz və dəyərli insan olan Mariannanın vəfatı məni dərindən sarsıtdı. Yaxın insanı itirmək ağrısı heç nə ilə müqayisə oluna bilməz.

Qəlblərimizi dolduran bu kədər hissini ifadə etməyə söz tapmaq çətindir.

Görkəmli ictimai xadim, vəfalı ömür-gün yoldaşı, etibarlı dost - Marianna onu tanıyanlar üçün xeyirxahlıq, nəciblik, mərhəmət, şəfqət rəmzi idi.

O, parlaq, çalışqan, təşəbbüskar, insanların ağrı-acısını dərindən hiss etməyi bacaran əvəzsiz şəxsiyyət olaraq yaddaşlarda qalacaqdır.

Marianna Vardinoyannis həm də Azərbaycanın səmimi dostu idi. Təsadüfi deyil ki, onun Azərbaycan və Yunanıstan xalqları arasında dostluq əlaqələrinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilərək Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Dostluq" ordeni ilə təltif edilmişdir.

Marianna ilə görüşlərimiz zamanı yaratdığı sevgi dolu, xoş və unudulmaz xatirələr daim qəlbimdə yaşayacaqdır.

Bu ağır günlərdə dərdinizi bölüşür, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirəm.

*Səmimiyyətlə,*

***Sizin Mehriban ƏLİYEVA***

## Minsk qrupu tarixin zibilliyindədir

### Böyük Zəfər bu yarıtmaz təsisatın üzərindən birdəfəlik xətt çəkib

44 günlük Vətən müharibəsində isə Azərbaycan öz gücü ilə bütün məsələlərə son qoydu və bu gün diktəni Qalib Komandan kimi İlham Əliyev edir. Azərbaycan Prezidenti qətiyyətlə vurğulayıb ki, artıq nə münaqişə var, nə də onun "həlli" ilə məşğul olan ATƏT-in Minsk qrupu. "Biz uzun illər, 30 il gözlədik ki, beynəlxalq ictimaiyyət tərəfindən bu məsələnin həlli tapılacaq və işğala son qoyulacaq", - deyən Prezident İlham Əliyev qeyd edib ki, bu məqsədlə 1992-ci ildə ATƏT-in Minsk qrupu təsis olunmuşdu, qrupun funksiyası münaqişənin həlli, işğala son qoymaq idi. Lakin əksinə, ATƏT-in Minsk qrupu, sadəcə, bir alətə çevrildi.

→ 4

## Prezident İlham Əliyevdən Ermənistana son şans

### Əgər İrəvan hazırkı mühüm məqamdan düzgün yararlanmasa, onun doğurduğu ağır nəticələrə qatlanmalı olacaq

Postmüharibə dövründə Ermənistanla Azərbaycan arasında aparılan sülh danışıqları prosesi ilə bağlı ətraflı məlumat verən, rəsmi Bakının Vətən müharibəsinin üzərindən ötən müddət ərzində iki ölkə arasında normallaşmaya nail olunması baxımından kifayət qədər konstruktivlik nümayiş etdirməsindən danışan dövlət başçısı həm də beynəlxalq media vasitəsilə bir daha dünyaya bəyan etdi ki, indiyə qədər sülhə nail olunmamasının yeganə səbəbi Ermənistanın hələ də Azərbaycana qarşı ərazi iddiası güdməsidir.

→ 5



## Daşaltının bərpası 220 ailəyə illərin həsrətini unutduracaq

→ 7

## Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin görüşü olub

İyulun 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov ilə ikitərəfli, daha sonra isə Rusiya xarici işlər naziri və Ermənistan xarici işlər naziri Ararat Mirzoyan ilə üçtərəfli görüşlər keçirib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşlərdə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesi müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, Azərbaycan tərəfindən regionda sülh və təhlükəsizliyin bərqərar olunması istiqamətində atılan addımlar əleyhinə Ermənistan tərəfindən törədilən hədə və qeyri-qanuni fəaliyyətlər, habelə təyyarələrin uçuşuna törədilən maneələr daxil, hərbi təxribatlar barədə ölkəmizin mövqeyini bir daha diqqətə çatdırıb. Ceyhun Bayramov bölgədə humanitar vəziyyətə dair səsləndirilən iddiaların tamamilə əsassız olmaqla yanaşı, bu iddiaların siyasi manipulyasiya olduğunu vurğulayıb.

→ 6

## Azərbaycan heç zaman forposta çevrilməyib

### Prezident İlham Əliyev çoxmilyonluq auditoriyası olan "China Media Group"a qlobal həqiqətləri açıqlayıb

Bu bir daha sübut etdi ki, Azərbaycan hansısa güc mərkəzlərindən idarə olunmur. Prezident İlham Əliyev özünün xarakterinə, yüksək liderlik qabiliyyətinə arxalanaraq ölkəmizi irəli aparmaqda davam edir. Əminəm ki, bu, sülh müqaviləsinin imzalanmasına və bütövlükdə Qafqazda yeni arxitekturanın qurulmasına da yol açacaq. Bütün dünya şahidi olacaq ki, müxtəlif siyasi məsələləri önə çıxarmaqla, onları xarici məkanda müzakirə edib Azərbaycan əleyhinə qərar və qətnamələr qəbul etməklə heç nəyi dəyişmək mümkün deyil.

→ 5

## Azərbaycanın təklifini Avropa İttifaqı təqdir edir

### Ermənilərin Ağdam-Xankəndi yolundan istifadədən imtina etmələri siyasi spekulyasiyadır

Azərbaycanın Qarabağda yaşayan ermənilərin ərzaq və humanitar yardım tədarükü üçün Ağdam yolundan istifadə etməsi ilə bağlı təklifi Brüssel görüşündə Avropa İttifaqı Şurası prezidenti Şarl Mişel tərəfindən də dəstəklənib. Bəs Qarabağ erməniləri "gərgin humanitar vəziyyət"lə üzləşiblərsə, Azərbaycanın Ağdam yolundan istifadə etmələri təklifi ilə niyə razılaşmırlar?

Qarabağda yaşayan ermənilərə ərzaq tədarükünün Ağdam yolu ilə həyata keçirilməsi logistik baxımdan daha sərfəlidir. Belə ki, Ağdam yolu daha qısadır və daşınma daha ucuz başa gəlir. Ermənistanda ƏDV-si ödənilmiş mallar nə üçün humanitar yardım adı altında Azərbaycan ərazisinə gətirilməlidir və Ermənistan bundan niyə qazanmalıdır?

→ 4

## "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 9, № 8, maddə 598, № 9, maddə 668; 2007, № 4, maddə 320, № 5, maddə 446, № 7, maddə 712, № 11, maddə 1078; 2008, № 6, maddə 470, № 7, maddə 608; 2010, № 7, maddə 590; 2011, № 4, maddə 266, № 11, maddə 982; 2012, № 6, maddə 521; 2014, № 2, maddə 84; 2015, № 5, maddə 491; 2018, № 3, maddələr 375, 394, № 5, maddə 887; 2019, № 4, maddə 592; 2022, № 7, maddə 712) aşağıdakı dəyişikliklər edilsin:

1. 11.1-ci maddədən "yaşı 30-dan aşağı olmayan" sözləri çıxarılsın.

2. 32.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"32.2. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş məsələyə dair Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusuna Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına barəsində sorğu verilən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına uyğun olmayan normativ-hüquqi akta əsaslandığı hallarda yol verilir.".

3. 34-cü maddə üzrə:

3.1. 34.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"34.2. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 4-cü bəndində nəzərdə tutulmuş məsələyə dair şikayətə Konstitusiya Məhkəməsi tərəfindən baxılmasına barəsində şikayət edilən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına uyğun olmayan normativ-hüquqi akta əsaslandığı hallarda yol verilir.";

3.2. 34.4-cü maddəyə "hallarda" sözündən sonra "və müddətlərdə" sözləri əlavə edilsin.

4. 35.1.3-cü maddədə "habelə" sözü "yaxud sorğu və ya müraciətlə əlaqədar" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Konstitusiya Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. həmin Konstitusiya Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinə (ombudsmana) tövsiyə edilsin ki, "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 900-VIKQD nömrəli Konstitusiya Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2023-cü il*

## "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 115; 2004, № 9, maddə 665; 2006, № 11, maddə 909; 2007, № 10, maddə 928; 2009, № 10, maddə 761, № 12, maddə 944; 2011, № 6, maddə 459, № 8, maddə 749; 2014, № 7, maddə 757; 2016, № 4, maddə 655; 2018, № 11, maddə 2184, № 12 (I kitab), maddə 2480; 2020, № 4, maddə 384; 2023, № 1, maddə 35) aşağıdakı dəyişikliklər edilsin:

1. I fəslin adında "İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİN (OMBUDSMANIN)" sözləri "AZƏRBAYCAN RESPUBLİKASININ İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN (OMBUDSMANIN)" sözləri ilə əvəz edilsin.

2. 1-ci maddə üzrə:

2.1. adına "müvəkkilin" sözündən sonra "(ombudsmanın)" sözü əlavə edilsin;

2.2. 1.1-ci maddədə "müvəkkili vəzifəsi (bundan sonra "Müvəkkil" adlandırılacaq)" sözləri "müvəkkili (ombudsman) vəzifəsi (bundan sonra - Müvəkkil)" sözləri ilə,"dövlət və yerli özünüidarə orqanları," sözləri "dövlət orqanları, bələdiyyələr, habelə dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər) və büdcə təşkilatları (bundan sonra - dövlət orqanları, bələdiyyələr və digər qurumlar), onların" sözləri ilə əvəz edilsin;

2.3. 1.3-cü maddədə "informasiya sahibi olan dövlət orqanlarının, yerli özünüidarə orqanlarının və vəzifəli şəxslərin" sözləri "dövlət orqanlarının, bələdiyyələrin, publik hüquqi şəxslərin, onların vəzifəli şəxslərinin (bundan sonra - informasiya sahibləri)" sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 1.3-1-ci maddə əlavə edilsin:

"1.3-1. Müvəkkil "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.";

2.5. 1.4-cü maddədə "əməkdaşlıq edir" sözləri ", habelə xarici ölkələrin insan hüquqları təsisatları ilə əməkdaşlıq edə, bu məqsədlə müqavilələr bağlaya, beynəlxalq qurumlarda təmsil oluna bilər" sözləri ilə əvəz edilsin;

2.6. aşağıdakı məzmunda 1.11-ci maddə əlavə edilsin:

"1.11. Müvəkkil insan hüquqları sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrası prosesinin təhlilini apara, rəy və təkliflərini müvafiq sahədə monitorinq və qiymətləndirməni həyata keçirən quruma təqdim edə bilər.".

3. 3.4-cü maddədə "gün" sözü" iş günü" sözləri ilə əvəz edilsin.

4. 4.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"4.3. Müvəkkilin səlahiyyətlərinin bitməsinə 30 gün qalmış Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisinə yeni Müvəkkilin seçilməsi üçün üç şəxsin namizədliyini təqdim edir. Azərbaycan Respublikasının Milli Məclisi 15 gün müddətində Müvəkkilin seçilməsi ilə bağlı müvafiq qərar qəbul edir.".

5. 5-ci maddə üzrə:

5.1. 5.2.3-cü maddədə "hər hansı dövlət və ya yerli özünüidarə orqanı, vəzifəli şəxs" sözləri "dövlət orqanları, bələdiyyələr və digər qurumlar, onların vəzifəli şəxsləri" sözləri ilə əvəz edilsin;

5.2. 5.3-cü maddəyə "hərbi vəziyyətin" sözlərindən sonra ", habelə epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin" sözləri əlavə edilsin.

6. 6.4-cü maddəyə "poçt-teleqraf" sözlərindən sonra "və elektron" sözləri əlavə edilsin.

7. II fəslin adında "VƏ MİLLİ PREVENTİV MEXANİZMİN" sözləri ", MİLLİ PREVENTİV MEXANİZMİN VƏ MÜSTƏQİL MONİTORİNQ MEXANİZMİNİN" sözləri ilə əvəz edilsin.

8. 8-ci maddə üzrə:

8.1. 8.1-ci maddədə "ərizəçi" adlandırılacaq" sözləri " - ərizəçi" sözü ilə əvəz edilsin;

8.2. 8.2-ci maddənin birinci cümləsinə "qeyri-hökumət təşkilatları" sözlərindən sonra "(ictimai birliklər və fondlar), media subyektləri, həmkarlar ittifaqları, vətəndaşların təşəbbüs qrupları və bələdiyyələrin məhəllə komitələri (bundan sonra - vətəndaş cəmiyyəti institutları)" sözləri əlavə edilsin və həmin maddənin ikinci cümləsində "qeyri-hökumət təşkilatları" sözləri "vətəndaş cəmiyyəti institutları" sözləri ilə əvəz edilsin;

8.3. 8.5-ci maddədə "saxlanılma yerlərində" sözləri"saxlama yerlərində, qarnizon hauptvaxtlarında, qanunsuz miqrantların saxlanılması mərkəzlərində, habelə saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərdə, o cümlədən müvafiq tibb və təhsil müəssisələrində (bundan sonra - şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlər)" sözləri ilə əvəz edilsin.

9. 12-ci maddə üzrə:

9.1. 12.1-ci maddənin birinci cümləsində "orqanın" sözü "dövlət orqanının, bələdiyyənin və digər qurumun" sözləri ilə əvəz edilsin;

9.2. 12.2.1-ci maddədə "dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarına, hərbi hissələrə, habelə polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə, qanunsuz miqrantların saxlanılması mərkəzlərinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə" sözləri "dövlət orqanlarına, bələdiyyələrə və digər qurumlara, hərbi hissələrə, polis orqanlarına, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə" sözləri ilə əvəz edilsin, həmin maddəyə ikinci halda "saxlanılan" sözündən sonra" və ya əvvəllər saxlanılmış" sözləri, "protokollaşdırmaq;" sözündən sonra "texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq;" sözləri əlavə edilsin;

9.3. 12.2.2-ci maddədə "dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən" sözləri "dövlət orqanlarından, bələdiyyələrdən və digər qurumlardan, onların vəzifəli şəxslərindən" sözləri ilə əvəz edilsin;

9.4. 12.2.5-ci maddədə "orqana" sözü "dövlət orqanına, bələdiyyəyə və digər quruma" sözləri ilə əvəz edilsin;

9.5. 12.2.7-ci maddədə "dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, polis bölmələrinin, müvəqqəti saxlama yerlərinin, istintaq təcridxanalarının, cəzaçəkmə müəssisələrinin, qarnizon hauptvaxtlarının, psixiatriya müəssisələrinin, qanunsuz miqrantların saxlanılması mərkəzlərinin və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərin" sözləri "dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların rəhbərləri və digər vəzifəli şəxsləri, hərbi hissələrin komandirləri, polis orqanlarının, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin" sözləri ilə əvəz edilsin, həmin maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 12.2.8-ci və 12.2.9-cu maddələr əlavə edilsin:

"12.2.8. şikayət üzrə yerində araşdırma aparmaq və nəticələrini sənədləşdirmək;

12.2.9. bu Konstitusiya Qanununun II fəsli ilə müəyyən edilmiş qaydada şikayətlərə baxılması, milli preventiv mexanizmin və müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi zamanı hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini dəvət etməklə tədbirlər görmək.".

10. 13-cü maddə üzrə:

10.1. 13.1-ci maddədə "5" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

10.2. 13.2.1-ci maddədə "dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən" sözləri "dövlət orqanlarından, bələdiyyələrdən və digər qurumlardan, onların vəzifəli şəxslərindən" sözləri ilə, "orqanlar" sözü "dövlət orqanları, bələdiyyələr və digər qurumlar" sözləri ilə əvəz edilsin;

10.3. 13.2.4-cü maddədə "orqanlara" sözü "dövlət orqanlarına, bələdiyyələrə və digər qurumlara" sözləri ilə əvəz edilsin;

10.4. 13.2.7-ci maddədə "dövlət və yerli özünü idarə orqanının" sözləri "dövlət orqanının, bələdiyyənin və digər qurumun" sözləri ilə əvəz edilsin.

11. 13-1-ci maddə üzrə:

11.1. 13-1.2.1-ci və13-1.2.3-cü maddələrdə "sahibi olan dövlət orqanının, yerli özünüidarə orqanının və ya vəzifəli şəxsin" sözləri "sahibinin" sözü ilə əvəz edilsin;

11.2. 13-1.3-cü və13-1.5-ci maddələrdən "olan dövlət orqanı, yerli özünüidarə orqanı və ya vəzifəli şəxs" sözləri çıxarılsın;

11.3. 13-1.4-cü maddədə "sahibi olan dövlət orqanından, yerli özünüidarə orqanından və ya vəzifəli şəxsdən" sözləri "sahibindən" sözü ilə əvəz edilsin;

11.4. aşağıdakı məzmunda 13-1.6-cı maddə əlavə edilsin:

"13-1.6. Müvəkkil informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətə baxarkən informasiya sahiblərindən zəruri məlumatları (sənədləri, materialları) və ya onların surətlərini tələb edə bilər. Həmin məlumatlar (sənədlər, materiallar) 5 iş günü müddətində Müvəkkilə təqdim edilməlidir.".

12. Aşağıdakı məzmunda 13-2-ci və 13-3-cü maddələr əlavə edilsin:

**"Maddə 13-2. Milli preventiv qrup**

13-2.1. Bu Konstitusiya Qanununun 1.2-ci maddəsində nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi məqsədilə Müvəkkilin aparatında Milli preventiv qrup yaradılır. Yaşı 25-dən aşağı olmayan, ali təhsilli, insan hüquqlarının müdafiəsi sahəsində təcrübəyə və yüksək əxlaqi keyfiyyətlərə malik olan şəxslər Milli preventiv qrupun üzvü təyin olunurlar. Milli preventiv qrupun üzvləri Müvəkkil tərəfindən 3 il müddətinə şəffaf prosedurlar əsasında təyin olunurlar.

13-2.2. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxs Milli preventiv qrupun üzvü təyin oluna bilməz.

13-2.3. Milli preventiv qrup aşağıdakı hüquqlara malikdir:

13-2.3.1. istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis orqanlarına, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə daxil olmaq, saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək, saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq, akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq, texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq;

13-2.3.2. polis orqanlarının, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək;

13-2.3.3. milli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı hüquq pozuntularının qarşısının alınması və aşkar edilmiş pozuntuların aradan qaldırılması məqsədilə dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların nümayəndələrini dəvət etməklə tədbirlər görmək.

13-2.4. Milli preventiv qrupun üzvü öz funksiyalarını həyata keçirməsi ilə əlaqədar ona məlum olmuş faktlar barəsində ifadə verməyə və ya hər hansı digər üsulla bu faktları açıqlamağa məcbur edilə bilməz. Bu təminat Milli preventiv qrupun üzvü qrupun tərkibindən çıxdıqdan sonra da qüvvədə qalır.

13-2.5. Milli preventiv qrupun üzvü saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə öz funksiyalarını həyata keçirərkən tutula və ya saxlanıla bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Milli preventiv qrupun üzvünün poçt, teleqraf və digər göndərişlərinin, habelə elektron yazışmalarının üzərinə həbs qoyulmasına, onların yoxlanılmasına və ya götürülməsinə yol verilmir.

**Maddə 13-3. Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsinin xüsusiyyətləri**

13-3.1. Müvəkkil insan hüquq və azadlıqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqi, pozuntu hallarının qarşısının alınması məqsədilə bu Konstitusiya Qanununun 1.3-1-ci maddəsinə uyğun olaraq müstəqil monitorinq mexanizminin funksiyalarını həyata keçirir.

13-3.2. Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi məqsədilə Müvəkkilin aparatında monitorinq qrupları yaradılır. Monitorinq qruplarının üzvləri bu Konstitusiya Qanununun 13-2.1-ci maddəsində nəzərdə tutulmuş qaydada təyin olunurlar.

13-3.3. Müstəqil monitorinq mexanizmi funksiyalarını həyata keçirən zaman Müvəkkilin və monitorinq qrupunun aşağıdakı hüquqları vardır:

13-3.3.1. dövlət orqanlarında, bələdiyyələrdə və digər qurumlarda monitorinqlər həyata keçirmək, zəruri məlumatlarla (sənədlərlə, materiallarla) yerində tanış olmaq və surətlərini almaq;

13-3.3.2 dövlət orqanlarından, bələdiyyələrdən və digər qurumlardan, onların vəzifəli şəxslərindən zəruri məlumatları (sənədləri, materialları) və ya onların surətlərini tələb etmək və 5 iş günü müddətində almaq;

13-3.3.3. həyata keçirilən monitorinqin nəticələrini sənədləşdirmək;

13-3.3.4. dövlət orqanlarına, bələdiyyələrə və digər qurumlara, onların vəzifəli şəxslərinə monitorinqin nəticələri ilə əlaqədar tövsiyələr vermək;

13-3.3.5. vətəndaş cəmiyyəti institutlarını, müstəqil ekspertləri və mütəxəssisləri monitorinq qruplarının fəaliyyətinə cəlb etmək.

13-3.4. Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi zamanı aşkar edilmiş insan hüquqlarının pozulması faktlarına bu Konstitusiya Qanununun 12-ci, 13-cü, 13-1-ci və 15-ci maddələri ilə müəyyən edilmiş qaydada baxılır.".

13. 14.2-ci maddədə "dövlət və yerli özünü idarə orqanlarının" sözləri "dövlət orqanlarının, bələdiyyələrin və digər qurumların" sözləri ilə əvəz edilsin.

14. 15-ci maddə üzrə:

14.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

**"Maddə 15. Müvəkkilin fəaliyyətində konfidensiallığın təmin olunması";**

14.2. 15.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"15.1. Müvəkkilin fəaliyyəti ilə əlaqədar ona, milli preventiv qrupun və müstəqil monitorinq qrupunun üzvlərinə, Müvəkkilin aparatının və regional mərkəzlərinin işçilərinə məlum olan dövlət sirri təşkil edən məlumatların, istintaq, məhkəmə, vergi, bank və kommersiya sirlərinin, eləcə də qanunla əldə olunmasına məhdudiyyət qoyulan digər məlumatların mühafizəsi bu sahədə münasibətləri tənzimləyən Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada həyata keçirilir.".

15. Aşağıdakı məzmunda 16.6-1-ci maddə əlavə edilsin:

"16.6-1. Müvəkkil 5 illik vəzifə maaşı məbləğində icbari sığorta edilir.".

16. 17.3-cü maddədə "Aparat" sözü "Müvəkkilin aparatı" sözləri ilə əvəz edilsin.

17. 18-1-ci maddə ləğv edilsin.

18. 20-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 20. Müvəkkilin, milli preventiv qrupun və müstəqil monitorinq qruplarının qanuni fəaliyyətinə maneə törədilməsinə görə məsuliyyət**

Müvəkkilin, milli preventiv qrupun və müstəqil monitorinq qruplarının qanuni fəaliyyətinin məhdudlaşdırılması və ya fəaliyyətinə müdaxilə qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyun 2023-cü il*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

## Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra- Nazirlik) yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) elm, ali və orta ixtisas təhsili sahələrində (bundan sonra - müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, elmi müəssisə və təşkilatların, ali və orta ixtisas təhsili müəssisələrinin (bundan sonra - elm və təhsil müəssisələri) fəaliyyətini tənzimləyən, əlaqələndirən və onların fəaliyyətinə dövlət nəzarətini həyata keçirən, Nazirliyin strukturuna daxil olan qurumdur.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə maddi-texniki təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə normativ-hüquqi bazanın formalaşdırılmasında iştirak etmək;

2.1.4. elm və təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və əlaqələndirilməsi üçün tədbirlər görmək;

2.1.5. elmi fəaliyyətlə tədris prosesinin inteqrasiyasının təmin edilməsi məqsədilə tədbirlər görmək;

2.1.6. elm və təhsil müəssisələrində nəticəyönlü, şəffaf və səmərəli idarəetmə modelini formalaşdırmaq və bu prosesdə müasir idarəetmə texnologiyalarından istifadəni təmin etmək;

2.1.7. əmək bazarının tələblərinə uyğun olaraq ixtisaslı kadr hazırlığına dair tələbatın müəyyən edilməsi üçün tədbirlər görmək;

2.1.8. müvafiq sahədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak etmək.

**3. Agentliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ-hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy vermək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların layihələrinin hazırlanmasında iştirak etmək və onların həyata keçirilməsini təmin etmək;

3.1.3. elm və təhsil müəssisələri ilə xarici elm və təhsil müəssisələri arasında təhsilalanların və təhsilverənlərin mübadiləsi proqramlarını əlaqələndirmək;

3.1.4. ali və orta ixtisas təhsili müəssisələrində beynəlxalq standartlara cavab verən təhsil şəraiti və mühitinin yaradılması üçün tədbirlər görmək;

3.1.5. ali və orta ixtisas təhsilinin keyfiyyətinin artırılması, elmi-metodiki təminatının gücləndirilməsi və təhsilin əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələri həyata keçirmək;

3.1.6. ali və orta ixtisas təhsili müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarət etmək;

3.1.7. elm və təhsil müəssisələrinə elmi-metodiki və tədris-metodiki rəhbərliyi həyata keçirmək;

3.1.8. hər tədris ili üçün orta ixtisas və ali təhsil müəssisələrinə müvafiq ixtisaslar üzrə tələbə qəbulu barədə təklifləri Nazirliyə təqdim etmək;

3.1.9. doktoranturaya illik qəbul və dissertantların təhkimolunma planlarına, habelə doktoranturaların (adyunkturaların) yaradılmasına dair vəsatətlə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.10. ali təhsil müəssisələrində magistraturaların yaradılması ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.11. ali və orta ixtisas təhsili müəssisələrində sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində müvafiq şərait yaradılmasının təşkilinə nəzarət etmək;

3.1.12. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı müsabiqələr və yarışlar keçirmək;

3.1.13. xüsusi istedada malik təhsilalanların müəyyənləşdirilməsi və təhsillərinin davam etdirilməsinin stimullaşdırılması üçün tədbirlər görmək, onlar üçün məqsədli və adlı təqaüdlər təsis edilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

3.1.14. tədris dilini zəif bilən təhsilalanlar üçün təhsil proqramlarına uyğun hazırlıq kurslarının təşkil edilməsi üçün tədbirlər görmək;

3.1.15. tabeliyində ali təhsil müəssisələri olan dövlət orqanlarının (qurumlarının) və özəl ali təhsil müəssisələrinin təklifləri əsasında bakalavriat səviyyəsində hazırlıq qrupları təşkil olunan ali təhsil müəssisələrinin və ixtisasların müəyyən edilməsi üçün Nazirliyə təkliflər vermək;

3.1.16. ali və orta ixtisas təhsili müəssisələrində pedaqoji işçilərin dərs yükü normalarına riayət olunmasına nəzarət etmək;

3.1.17. ali və orta ixtisas təhsili müəssisələrində təhsilalanların təhsil müəssisəsinin, ixtisasının, təhsilalma formasının dəyişdirilməsinin və təhsil müəssisəsinə bərpa olunmasının həyata keçirilməsini təmin etmək;

3.1.18. ali təhsil müəssisələri tərəfindən elmi-tədqiqat və elmi-metodiki işlərin təşkili qaydalarına və professor-müəllim heyətinin tədris işi vaxt normasına riayət olunmasına nəzarət etmək;

3.1.19. ali və orta ixtisas təhsili müəssisələrində yeni təhsil proqramlarının (ixtisasların) açılmasına dair Nazirliyə təkliflər vermək;

3.1.20. təhsilin bir pilləsindən və ya səviyyəsindən digərinə keçid zamanı təhsil proqramının (ixtisasın) uyğunluğuna nəzarət etmək;

3.1.21. ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçməsinin müəyyən edilmiş qaydaya uyğun təşkilinə nəzarət etmək;

3.1.22. ali, orta ixtisas və əlavə təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsi ilə əlaqədar rəy verilməsində iştirak etmək;

3.1.23. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, tabeliyində olan orta ixtisas təhsili müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan orta ixtisas təhsili müəssisələrinin nizamnamələrinə dair Nazirliyə rəy vermək;

3.1.24. elmi fəaliyyət subyektlərinin elmi istinadlı informasiya resurslarına çıxışının təmin edilməsi üçün tədbirlər görmək;

3.1.25. elm və təhsil fəaliyyətinin səmərəli təşkili, idarə edilməsi və inkişafı, habelə maddi-texniki bazasının möhkəmləndirilməsi, infrastruktur, avadanlıq, yüksəkixtisaslı elmi kadrlar, informasiya və digər zəruri vasitələrlə təmin olunması üçün tədbirlər görmək;

3.1.26. elm, ali və orta ixtisas təhsili sahəsində planlaşdırmanı, proqnozlaşdırmanı, əlaqələndirməni və qiymətləndirməni (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirmək;

3.1.27. dövlət təhsil müəssisələrinin tədris, elmi, elmi-metodik, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər texniki vasitələrlə təminatını həyata keçirmək;

3.1.28. dövlət elmi müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən mükafatlandırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.29. tabeliyində olan elm və təhsil müəssislərində elmi fəaliyyətin təşkilində və təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqi üçün tədbirlər görmək;

*Ardı 3-cü səh.*

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin ƏSASNAMƏSİ

*Əvvəli 2-ci səh.*

3.1.30. tabeliyində olan təhsil müəssislərində çalışan təhsilverənlərin əlavə təhsilinin təmin edilməsi üçün müvafiq tədbirləri həyata keçirmək;

3.1.31. tabeliyində olan elm və təhsil müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dair proqnozları hazırlayaraq Nazirliyə təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;

3.1.32. elm və ali təhsil müəssisələrində aparılan elmi araşdırmaları əlaqələndirmək, elmi-tədqiqat işlərini dəstəkləmək və mükafatlandırmaq;

3.1.33. müasir təfəkkürlü və yaradıcı gənclərin erkən vaxtlardan elmi araşdırmalara cəlb olunmasını təşviq etmək;

3.1.34. elmi kadr tələbatının müəyyən edilməsinə və həmin tələbata uyğun olaraq dövlət sifarişi əsasında elmi və elmi-pedaqoji kadrlar hazırlanmasına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.35. elm və təhsil sahəsində əlverişli investisiya mühitinin yaradılması üçün təklifləri Nazirliyə təqdim etmək;

3.1.36. tabeliyində olan elm və təhsil müəssisələrinin istehsalat bazalarının, texnoparklarının, laboratoriyalarının müasirləşdirilməsi və inkişafı üçün tədbirlər görmək;

3.1.37. ali və orta ixtisas təhsili müəssisələri üçün universitet şəhərciklərinin (kampusların), tələbə yataqxanalarının yaradılmasını təşviq etmək;

3.1.38. elmi-tədqiqat, texniki konstruktor işlərinin kommersiyalaşdırılmasına, bu məqsədlə həyata keçirilən tədqiqatların maliyyələşdirilməsinə kömək göstərmək, tədqiqat nəticələrinin məhsula çevrilməsinə yardım etmək;

3.1.39. elm və təhsil müəssisələrində aparılan elmi tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılmasına, elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinə kömək göstərmək, elmin informasiya təminatının gücləndirilməsi, beynəlxalq elmi əlaqələrin dərinləşdirilməsi sahəsində tədbirləri təşviq etmək;

3.1.40. hüquqi və fiziki şəxslərin iştirakı ilə tədris-istehsalat sahələrinin qurulmasına şərait yaratmaq;

3.1.41. ali təhsil müəssisələrinin təhsil tədqiqat-innovasiya mərkəzlərinə çevrilməsinə dəstək vermək;

3.1.42. elm və ali təhsil sahələrində qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

3.1.43. Azərbaycan Respublikası vətəndaşlarının yüksəkreytinqli xarici ali təhsil müəssisələrində və elm-təhsil mərkəzlərində təhsilinin təşkili və elmi fəaliyyəti üçün tədbirlər görmək;

3.1.44. elm və ali təhsil müəssisələrinin akademik potensialının gücləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.45. ali təhsil müəssisələrində ölkənin inkişaf prioritetlərinə uyğunixtisas proqramları üzrə nüfuzlu xarici ali təhsil müəssisələri ilə birlikdə beynəlxalq ikili diplom proqramlarının əhatə dairəsinin genişləndirilməsini təmin etmək;

3.1.46. ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqi üçün tədbirlər görmək;

3.1.47. dövlət orta ixtisas təhsili müəssisələrində pedaqoji şuraların, dövlət ali təhsil müəssisələrində elmi şuraların təsdiq edilmiş əsasnaməyə uyğun təşkilinə və fəaliyyətinə nəzarət etmək;

3.1.48. ali və orta ixtisas təhsili müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı tədbirlər görmək, tələbələrin idman yarışlarında, turist yürüşlərində iştirakına, onların texniki və bədii yaradıcılığına, digər tədbirlərə dəstək vermək;

3.1.49. müvafiq sahədə statistik məlumatları və hesabatları toplamaq, təhlil etmək və nəticələrini müvafiq orqanlara təqdim etmək;

3.1.50. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.51. ali və orta ixtisas təhsili müəssisələrinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndən istifadəsini təmin etmək;

3.1.52. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.53. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.54. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.55. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.56. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.57. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.58. Agentliyin fəaliyyətinin nəticələri barədə Nazirliyə hesabat təqdim etmək;

3.1.59. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normativ hüquqi aktın qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh olunması, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında təklifləri Nazirliyə təqdim etmək;

4.1.2. elmi müəssisə və təşkilatlardan, təhsil müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.3. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək, bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait dairəsində elmi-tədqiqat işlərinin aparılmasını təmin etmək;

4.1.5. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.6. fəaliyyət istiqamətinə uyğun olaraq, elm və təhsil müəssisələrinin işçilərinin həvəsləndirilməsini və mükafatlandırılmasını həyata keçirmək, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

4.1.7. dövlət elmi müəssisə və təşkilatlarının, təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə təklifləri Nazirliyə təqdim etmək;

4.1.8. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.9. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək;

4.1.10. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentlik öz fəaliyyətini Aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.) vasitəsilə həyata keçirir.

5.2. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Agentlik direktorunun Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən iki müavini vardır.

5.4. Agentlik direktorunun müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Agentliyin direktoru:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.5.3. müəyyən edilmiş əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin strukturunu, ştat cədvəlini, gəlir və xərclər smetasını təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.4. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində, Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.5-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirlər daxilində onların gəlir və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.5.5. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) ştat cədvəlinin, əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.6. strukturuna daxil olan qurumların əsasnamələrini, habelə tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.7. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.8. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər işçilərini və Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin müavinlərini, eləcə də Nazirliklə razılaşdırmaqla, Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür, əlavə təhsili üçün müvafiq tədbirlər görür;

5.5.9. strukturuna daxil olmayan tabeliyindəki orta ixtisas təhsili müəssisələrinin filial və nümayəndəliklərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.10. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər dövlət qulluqçularına qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir;

5.5.11. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir, Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim edir;

5.5.13. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.14. Agentliyin fəaliyyəti barədə Nazirliyə hesabat verir;

5.5.15. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.16. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin xərclənməsinə dair hesabatları rübdə bir dəfə Nazirliyə təqdim edir;

5.5.17. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi, habelə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi-tədqiqat fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi məqsədilə ictimai əsaslarla fəaliyyət göstərən şuraların yaradılması barədə Nazirliyə təkliflər verir.

*Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin ƏSASNAMƏSİ

**1. Ümumi müddəalar**

1.1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi (bundan sonra - Agentlik) məktəbəqədər və ümumi təhsilsahələrində (bundan sonra - müvafiq sahə) dövlət siyasətinin həyata keçirilməsində iştirak edən, məktəbəqədər, ümumi və məktəbdənkənar təhsil müəssisələrinin (bundan sonra - təhsil müəssisləri) fəaliyyətini tənzimləyən, əlaqələndirən və onların fəaliyyətinə dövlət nəzarətini həyata keçirən, Nazirliyin strukturuna daxil olan qurumdur.

1.2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, habelə Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin adı və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.

1.5. Agentliyin saxlanılması xərcləri və fəaliyyəti, habelə madditexniki təminatı Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Agentlik Bakı şəhərində yerləşir.

**2. Agentliyin fəaliyyət istiqamətləri**

2.1. Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılması ilə bağlı Nazirliyə təkliflər vermək, həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

2.1.2. müvafiq sahənin inkişafını təmin etmək;

2.1.3. müvafiq sahədə normativ hüquqi bazanın formalaşdırılmasında iştirak etmək;

2.1.4. təhsil müəssisələrinin fəaliyyətinin tənzimlənməsi və əlaqələndirilməsi üçün tədbirlər görmək;

2.1.5. təhsil müəssisələrində nəticəyönlü, şəffaf və səmərəli idarəetmə modelini formalaşdırmaq və bu prosesdə müasir idarəetmə texnologiyalarından istifadəni təmin etmək;

2.1.6. təhsil proqramları vasitəsilə təhsilalanlara sistemləşdirilmiş bilik, bacarıq və səriştələrin aşılanmasını, onların ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlanmasını təmin etmək;

2.1.7. təhsilverənlərin peşəkarlığının davamlı şəkildə artırılması işini təşkil etmək;

2.1.8. təhsilalanların milli-mənəvi dəyərlər, vətənpərvərlik və azərbaycançılıq ideyaları ruhunda tərbiyə olunması istiqamətində tədbirlər görmək;

2.1.9. müvafiq sahədə beynəlxalq əməkdaşlığın həyata keçirilməsində iştirak etmək.

**3. Agentliyin vəzifələri**

3.1. Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

3.1.1. müvafiq sahəni tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak etmək, onlara dair rəy vermək;

3.1.2. müvafiq sahədə dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının, konsepsiyaların layihələrinin hazırlanmasında iştirak etmək və onların həyata keçirilməsini təmin etmək;

3.1.3. təhsil müəssisələrində beynəlxalq standartlara cavab verən təhsil şəraiti və mühitinin yaradılması üçün tədbirlər görmək;

3.1.4. məktəbəqədər və ümumi təhsilin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə müxtəlif istiqamətli layihələri həyata keçirmək;

3.1.5. təhsildə inkişaf və innovasiyalar üzrə qrant layihələrini həyata keçirmək;

3.1.6. təhsil müəssisələrində təhsilin müvafiq dövlət standartlarına uyğun təşkilinə nəzarət etmək;

3.1.7. təhsil müəssisələrinə tədris-metodiki rəhbərliyi həyata keçirmək;

3.1.8. təhsil proqramlarına (kurikulumlara), tədris planlarına və proqramlarına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.9. məktəbyaşlı uşaqların icbari ümumi orta təhsilə cəlb edilməsi və icbari ümumi orta təhsilin həyata keçirilməsi üçün tədbirlər görmək;

3.1.10. təhsil müəssisələrində sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində müvafiq şərait yaradılmasının təşkilinə nəzarət etmək;

3.1.11. rayon, şəhər psixoloji-tibbi-pedaqoji komissiyalarını yaratmaq və onların fəaliyyətini təşkil etmək;

3.1.12. sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmətin təşkilinə nəzarəti təmin etmək;

3.1.13. nitq pozuntusu olan təhsilalanlara kömək məqsədilə loqopedik xidmətin təşkilinitəmin etmək;

3.1.14. digər dövlət orqanlarının (qurumlarının) tabeliyində olan təhsil müəssisələri istisna olmaqla, ümumi təhsil müəssisələrində təhsilalanların peşəyönümü işinin təşkilində iştirak etmək;

3.1.15. müxtəlifsəviyyəli və müxtəlifmiqyaslı fənn olimpiadaları, müsabiqələr və yarışlar keçirmək;

3.1.16. təhsil müəssisələrində idman-sağlamlıq və profilaktik işlərin təşkili ilə bağlı lazımi tədbirlər görmək, uşaqların və şagirdlərin idman yarışlarında, turist yürüşlərində iştirakına, texniki və bədii yaradıcılığına, digər tədbirlərə dəstək vermək;

3.1.17. fiziki tərbiyə dərslərinin və idman məşğələlərinin yüksək səviyyədə keçirilməsini, tədris planlarına və təhsil standartlarına uyğun olaraq çağırışaqədər yaşlı gənclərin və çağırışçıların hərbi xidmətə zəruri fiziki hazırlığını təmin etmək, habelə təhsilalanların müəyyən edilmiş idman normativlərini yerinə yetirə bilməsi üçün şərait yaratmaq;

3.1.18. xüsusi istedada malik təhsilalanlarınmüəyyənləşdirilməsi və təhsillərinin davam etdirilməsinin stimullaşdırılması üçün tədbirlər görmək;

3.1.19. tədris dilini zəif bilən təhsilalanlar üçün təhsil proqramlarına uyğun hazırlıq siniflərinin və kurslarının təşkil edilməsi üçün tədbirlər görmək;

3.1.20. dövlət ümumi təhsil müəssisələrində təhsilini dövlət təhsil standartları əsasında digər dildə almaq istəyən şagirdlərin təhsil almaq istədikləri tədris dili üzrə müsahibədən keçirilməsi üçün tədbirlər görmək;

3.1.21. təhsil müəssisələrində pedaqoji işçilərin dərs yükü normalarına riayət olunmasına nəzarət etmək;

3.1.22. təhsil müəssisələrinin (dövlət təhsil müəssisələri istisna olmaqla) fəaliyyətinə lisenziya verilməsi ilə əlaqədar rəy verilməsində iştirak etmək;

3.1.23. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, tabeliyində olan təhsil müəssisələrinin, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin təklifi əsasında onların tabeliyində yaradılması nəzərdə tutulan təhsil müəssisələrinin nizamnamələrinə dair Nazirliyə rəy vermək;

3.1.24. ümumi təhsil pilləsində təhsilalanların yekun attestasiyası istisna olmaqla, təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmə) həyata keçirilməsinə nəzarət etmək;

3.1.25. tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə, ümumi təhsil müəssisələrinə, ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına uşaqların qəbulunun, habelə şagirdlərin sinifdən-sinfə keçirilməsinin və yerdəyişməsinin həyata keçirilməsini təşkil etmək;

3.1.26. dövlət ümumi təhsil müəssisələrində günü uzadılmış qrupların təşkil edilməsinə nəzarət etmək;

3.1.27. müvafiq sahədə planlaşdırmanı, proqnozlaşdırmanı, əlaqələndirməni və qiymətləndirməni (ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə təhsilalanların biliyinin yekun attestasiyası istisna olmaqla) həyata keçirmək;

3.1.28. dövlət təhsil müəssisələrinin dərsliklərlə, dərs vəsaitləri və digər tədris-metodiki vasitələr, informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal tədris resursları və digər əyani və texniki vasitələrlə təminatını həyata keçirmək;

3.1.29. tabeliyində olan təhsil müəssisələrində tam dövlət təminatında olan təhsilalanları yemək, paltar, ayaqqabı, şəxsi gigiyena əşyaları, yumşaq inventar, yataq ləvazimatı, dərslik, tədris ləvazimatı, zəruri avadanlıqla və s. ilə təmin etmək;

3.1.30. dövlət təhsil müəssisələri işçilərinin əməyinin stimullaşdırılmasına, o cümlədən onların mükafatlandırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

3.1.31. tabeliyində olan məktəbəqədər və ümumi təhsil müəssisələrinin təhsilverənlərə (pedaqoji kadrlara) tələbatı barədə məlumatı Nazirliyə təqdim etmək;

3.1.32. tabeliyində olan təhsil müəssisələrində təlim-tərbiyə prosesində müasir təhsil texnologiyalarının və innovasiyaların tətbiqi üçün tədbirlər görmək;

3.1.33. tabeliyində olan təhsil müəssisələrinə münasibətdə təhsilverənlərin əlavə təhsilinin təmin edilməsi üçün tədbirlər görmək;

3.1.34. təhsil müəssisələrində təhsilin və təlim-tərbiyə prosesinin keyfiyyətinə dövlət nəzarətini həyata keçirmək;

3.1.35. tabeliyində olan təhsil müəssisələri üzrə tələb olunan dövlət büdcəsi vəsaitinə dairproqnozları hazırlayaraq Nazirliyə təqdim etmək və ayrılmış vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasına nəzarət etmək;

3.1.36. müvafiq sahədə əlverişli investisiya mühitinin yaradılması üçün təklifləri Nazirliyə təqdim etmək;

3.1.37. müvafiq sahədə qabaqcıl beynəlxalq təcrübəni öyrənmək və ümumiləşdirmək;

3.1.38. ömürboyu təhsil üzrə Milli Kvalifikasiya Çərçivəsinin tətbiqi üçün tədbirlər görmək;

3.1.39. dövlət təhsil müəssisələrində pedaqoji şuraların təsdiq edilmiş əsasnaməyə uyğun təşkilinə və fəaliyyətinə nəzarət etmək;

3.1.40. müvafiq sahədə statistik məlumatları və hesabatları toplamaq, təhlil etmək və nəticələrini müvafiq orqanlara təqdim etmək;

3.1.41. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.1.42. təhsil müəssisələrinin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndən istifadəsini təmin etmək;

3.1.43. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunla müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

3.1.44. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.45. Agentliyə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.46. Agentliyin informasiya təminatını təşkil etmək və onun təhlükəsizliyini təmin etmək;

3.1.47. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

3.1.48. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təşkil etmək;

3.1.49. Agentliyin fəaliyyətinin nəticələri barədə Nazirliyə hesabat təqdim etmək;

3.1.50. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**4. Agentliyin hüquqları**

4.1. Öz vəzifələrini yerinə yetirmək üçün Agentlik aşağıdakı hüquqlara malikdir:

4.1.1. müvafiq sahədə normativ hüquqi aktın qəbul olunması, aktda dəyişiklik edilməsi, aktın şərh olunması, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi haqqında təklifləri Nazirliyə təqdim etmək;

4.1.2. təhsil müəssisələrindən fəaliyyət istiqamətlərinə uyğun olaraq hesabat və məlumatlar almaq;

4.1.3. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.1.4. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər, tədqiqatlar və araşdırmalar aparmaq, monitorinqlər keçirmək, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq, təkliflər vermək;

4.1.5. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi təşkilatları, elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

4.1.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq təhsil müəssisələri işçilərinin həvəsləndirilməsini və mükafatlandırılmasını həyata keçirmək, onlara dövlət təltiflərinin və fəxri adların verilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim etmək;

4.1.7. dövlət təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsinə, maddi rifahının yaxşılaşdırılmasına və onlara dövlət qayğısının artırılmasına dair təklifləri Nazirliyə təqdim etmək;

4.1.8. dövlət təhsil müəssisələrinin yaradılması, yenidən təşkili və ləğvi barədə təklifləri Nazirliyə təqdim etmək;

4.1.9. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək, belə tədbirlərin keçirilməsini təşkil etmək;

4.1.10. xarici dövlətlərin müvafiq təcrübəsini öyrənmək, xarici dövlətlərin aidiyyəti dövlət orqanları və digər qurumları ilə, beynəlxalq təşkilatlarla, xarici hüquqi və fiziki şəxslərlə əməkdaşlığı təşkil etmək və həyata keçirmək;

4.1.11. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**5. Agentliyin fəaliyyətinin təşkili**

5.1. Agentlik öz fəaliyyətini Aparatı, strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və s.) vasitəsilə həyata keçirir.

5.2. Agentliyin fəaliyyətinə Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktor rəhbərlik edir. Agentliyin direktoru Agentliyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Agentlik direktorunun Azərbaycan Respublikasının elm və təhsil naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç müavini vardır.

5.4. Agentlik direktorunun müavinləri vəzifə bölgüsünə uyğun olaraq fəaliyyət göstərirlər və onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə görə şəxsən məsuliyyət daşıyırlar.

5.5. Agentliyin direktoru:

5.5.1. Agentliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.5.2. dövlət orqanları (qurumları) ilə, yerli özünüidarəetmə orqanları ilə, hüquqi və fiziki şəxslərlə münasibətlərdə Agentliyi təmsil edir;

5.5.3. müəyyən edilmiş əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin strukturunu, ştat cədvəlini, gəlir və xərclər smetasını təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.4. strukturuna daxil olan qurumların əsasnamələrini, habelə tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini (nizamnamələrini Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiq etdikləri hüquqi şəxslər istisna olmaqla) təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.5.5. müavinləri arasında vəzifə bölgüsü aparır, onların, habelə Agentliyin digər vəzifəli şəxslərinin qarşılıqlı fəaliyyətini təmin edir;

5.5.6. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində, Agentliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (bu Əsasnamənin 5.5.7-ci yarımbəndi nəzərə alınmaqla) strukturunu, ştat cədvəlinivə ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirlər daxilində onların gəlir və xərclər smetasını Nazirliklə razılaşdırmaqla təsdiq edir;

5.5.7. müəyyən edilmiş struktur, işçilərin say həddi və əməyin ödənişi fondu daxilində tabeliyində olan publik hüquqi şəxslərin (Azərbaycan Respublikası Prezidentinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hallar istisna olmaqla) ştat cədvəlinin, əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğinin və ayrılmış büdcə təxsisatı çərçivəsində gəlir və xərclər smetasının təsdiq edilməsinə razılıq verir;

5.5.8. Agentlik direktorunun müavinləri istisna olmaqla, Agentliyin digər işçilərini və Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərinin müavinlərini, eləcə də Nazirliklə razılaşdırmaqla, Agentliyin strukturuna daxil olan yerli bölmə rəhbərlərinin müavinlərini, yerli bölmələrin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini və Agentliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür, əlavə təhsili üçün müvafiq tədbirlər görür;

5.5.9. strukturuna daxil olan yerli bölmələrin şöbə müdirlərinin və onların müavinlərinin, həmçinin strukturuna daxil olmayan tabeliyindəki təhsil müəssisələrinin filial və nümayəndəliklərinin rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

5.5.10. Agentlik direktorunun müavinləri və strukturuna daxil olan yerli bölmələrin rəhbərləri istisna olmaqla, Agentliyin digər dövlət qulluqçularına, habelə strukturuna daxil olan yerli bölmə rəhbərlərinin müavinlərinə qanunla müəyyən edilmiş qaydada dövlət qulluğunun ixtisas dərəcələrini verir;

5.5.11. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlik tərəfindən qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir, Agentliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.5.12. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təklifləri Nazirliyə təqdim edir;

5.5.13. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

5.5.14. Agentliyin fəaliyyəti barədə Nazirliyə hesabat verir;

5.5.15. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentliyin işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir;

5.5.16. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin xərclənməsinə dair hesabatları rübdə bir dəfə Nazirliyə təqdim edir;

5.5.17. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən elmi-metodik şuranın yaradılması barədə Nazirliyə təkliflər verir.

# Azərbaycandan keçən yollar dünyaya fayda və sabitlik gətirir

## Prezident İlham ƏLİYEV: "Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz"

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat marşrutları üzərində yerləşməsi Azərbaycanın mühüm coğrafi üstünlüklərini təşkil edir. Lakin son dövrlərə qədər nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bu imkandan istifadə edilmirdi. Məhz Prezident İlham Əliyev vəziyyəti yaxşılaşdırmaq üçün bu sahədə də genişmiqyaslı işlərin görülməsinə qərar verdi.



15 il əvvəl nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna başlandı. İlk növbədə yerli infrastrukturu inkişaf etdirmək üçün sərmayələrin yatırılmasına start verildi. Prezident İlham Əliyev bu il iyunun 20-də Çinin "China Media Group" Media Korporasiyasına müsahibə verərkən vurğulayıb ki, həmin vaxtdan ölkəmiz eyni zamanda qonşuları ilə də bağlantı körpüləri qurmağa başlayıb: "Biz mühüm tranzit ölkəsi olmaq arzusundaydıq, ancaq bunun üçün təkcə coğrafiya kifayət etmir. Hətta infrastruktur da kifayət deyil, burada digər məsələyə ehtiyac var. Bu isə qonşularla yaxşı münasibətlərdir. Qonşularla əməkdaşlıq olmadan tranzit ölkəyə çevrilmək olmaz. Bu isə bizim xarici siyasətimizin tərkib hissəsi idi. Prioritet qonşu ölkələrlə qarşılıqlı maraq üzərində daha güclü münasibətlər qurmaq idi".

Beləliklə, çinli müxbirin "Bir kəmər, bir yol" barədə verdiyi sualın cavabında bildirildi ki, bu layihəyə qoşularkən ölkəmizin artıq hazır infrastrukturu var idi. İndi isə sadəcə, texniki imkanları artırırıq. Ticarət limanı genişləndirilir. Çünki Şərqdən-Qərbə daşınan yüklərin həcminin artması yükaşırma baxımından problemlər yaradacaq. Bir neçə il əvvəl açılan limanın ovaxtkı yükaşırma qabiliyyəti isə 15 milyon ton idi. Məqsəd bunu 25 milyon tona çatdırmaqdır.

Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahib olduğuna baxmayaraq, Azərbaycan həm də yeni tanker və gəmilər inşa edir ki, daha çox yük daşımaq imkanı yaransın. Bu məqsədlə Bakı Gəmiqayırma Zavodunun genişləndirilməsi planlaşdırılır. Artan tələbat burada hər il 6-8 deyil, 10-20 gəminin inşası vəzifəsini qarşıya qoyur. Daha çox yüklərin nəql edilməsi üçün hazırda mövcud dəmir yolu da müasirləşdirilir.

Bir sözlə, böyük yük axınına daha yaxşı hazır olmaq üçün çox işlər görülür. Azərbaycan vasitəsilə daşınan yüklərin həcmi getdikcə artır. Bu, indikindən bir neçə dəfə artıq da ola bilər. Bununla bağlı dövlətimizin başçısı demişdir: "Biz bu istiqamətdə, həmçinin çinli tərəfdaşlarımız və qonşularımızla həmin infrastruktur bağlantısının yaradılması üçün fəal işləyirik. Burada inzibati bağlantı da olmalıdır. Burada tariflərlə bağlı vahid siyasət olmalıdır. Gömrük qaydaları sahəsində daha geniş qarşılıqlı əlaqələndirmə olmalıdır ki, necə deyərlər, bu qapını daha da geniş aça bilək. Yəni gələcəkdə ölkələrimiz arasındakı münasibətlər Azərbaycan vasitəsilə daha çox yüklərin daşınmasında vacib rol oynayacaqdır".

Bu gün Azərbaycanın nəqliyyat infrastrukturu artıq yüksək beynəlxalq standartlara cavab verir. Hazırkı geosiyasi vəziyyətdə Trans-Xəzər marşrutu Mərkəzi Asiya ölkələri üçün ən əhəmiyyətli marşruta çevrilib. Əslində, bu, "Bir kəmər, bir yol" layihəsinin bir hissəsidir. Məlumdur ki, Avropaya və əks-istiqamətdə yüklərin daşınması üçün Mərkəzi Asiya ölkələrinin seçimi o qədər də geniş deyil. Bu səbəbdən də həmin marşrut çox əhəmiyyətlidir. Məsələn, Çindən Avropaya göndərilən mallar dənizlə mənzilbaşına orta hesabla 36 günə çatır. Trans-Sibir marşrutu ilə bu, 20 gün vaxt aparır. Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edilməklə Orta dəhlizlə isə buna cəmi 12 gün kifayətdir.

Prezident İlham Əliyev bu layihəni belə xarakterizə etmişdir: "Bu, Azərbaycanın irəli sürdüyü və Türkiyə ilə Gürcüstandakı tərəfdaşlarımızın fəal dəstəyini almış yeni daşımalar yoludur, bağlantıdır və infrastrukturdur. 2017-ci ildə burada - Bakıda həmin layihənin rəsmi açılışı baş tutdu. Həmin vaxt Orta dəhlizlə daşımalar hələ ki prioritetlərdən biri hesab edilmirdi. Buna görə biz lazım olduğu qədər yüklərin daşınma həcminə sərmayələr yatırdıq. Lakin hazırda biz nə ilə məşğuluq? Biz həmin yolun təkmilləşdirilməsi işlərinə artıq bir neçə ay bundan əvvəl başladıq və nəticədə, həmin marşrutla əvvəlcə nəzərdə tutulduğundan beş dəfə artıq yüklər daşına biləcək".

İndi Azərbaycan ölkəmizdən Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində fəal şəkildə çalışır. Respublikamızın ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycandan təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, Zəngəzur dəhlizi də işə salınacaq. Bütün bunlar isə əlavə yüklər üçün digər imkanlar açacaq. Eyni zamanda Azərbaycan ərazisindən daşımalar həmçinin Gürcüstanın dəniz limanından keçəcək.

Dövlətimizin başçısı vurğulayıb ki, daşımalarda əməkdaşlıq bütün ölkələr üçün faydalı olacaq, bu işlər onların əlaqələrini gücləndirəcək: "Ölkələr bir-biri ilə daha sıx bağlı olacaq, inteqrasiya olacaq. Biz dəhliz boyunca bir çox istehsal sahələrini yaratmağı planlaşdırırıq və sadəcə, tranzit ölkə olmaq istəmirik. Geosiyasi baxımdan, bu, yaxşı haldır, yəni əlavə gəlir əldə etmək olar, biz Azərbaycanda böyük sənaye zonalarını yaratmaq istəyirik. Əslində, bu istiqamətdə irəliləyirik. Hesab edirəm ki, bu ay açılmış və artıq fəaliyyətə başlamış Ələt Azad İqtisadi Zonamızda istehsalatla məşğul olmaq həmçinin Çin şirkətləri üçün cəlbedici ola bilər. Əslində, təsəvvür etdiyinizdən də geniş fürsətdir".

Ticarət artdıqca təhlükəsizlik də möhkəmlənir və qarşılıqlı bağlılıq artır. İnsanlar, ölkələr bunun faydasını görürlər. Prezidentimizin dediyi kimi, bu şəraitdə, əlbəttə, sabitlik bərqərar olur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Minsk qrupu tarixin zibilliyindədir

## Böyük Zəfər bu yarıtmaz təsisatın üzərindən birdəfəlik xətt çəkib

İkinci Qarabağ müharibəsi sona çatmaqla həm də bir sıra prosesə xitam verildi. Onlardan biri "status-kvo" məsələsi, digəri isə münaqişənin həlli üçün yaradılmış ATƏT-in Minsk qrupu idi. Artıq hər ikisi tarixin arxivinə gömülüb.

Savaşın qalibi, Müzəffər Ali Baş Komandan İlham Əliyev böyük Zəfərdən sonra bəyan etdi ki, artıq Qarabağ münaqişəsi, "status-kvo" yoxdur. Yaradıldığı vaxtdan müharibəyədək regiona yalnız turist səfərləri edən həmsədrlərin "fəaliyyətini" isə konkret olaraq belə qiymətləndirdi. 3 diplomatın 28 illik fəaliyyəti sıfıra bərabərdir. Yəni üç həmsədr 25 illik fəaliyyət döründə münaqişənin nizamlanması istiqamətində ədalətli həll paketi təqdim edə bilmədilər. Amma işğalçı Ermənistana Qarabağda törətdiyi təxribatlara görə bir dəfə də olsun sanksiya tətbiq edilmədiyi halda, Azərbaycana qarşı illərlə ikili standartlar prinsipi yürüdüldü, təzyiqlər edildi. Bunu görən işğalçı dövlət də cəzasızlıq mühitindən yaxşıca yararlandı.

44 günlük Vətən müharibəsində isə Azərbaycan öz gücü ilə bütün məsələlərə son qoydu və bu gün diktəni Qalib Komandan kimi İlham Əliyev edir. Azərbaycan Prezidenti qətiyyətlə vurğulayıb ki, artıq nə münaqişə var, nə də onun "həlli" ilə məşğul olan ATƏT-in Minsk qrupu. "Biz uzun illər, 30 il gözlədik ki, beynəlxalq ictimaiyyət tərəfindən bu məsələnin həlli tapılacaq və işğala son qoyulacaq", - deyən Prezident İlham Əliyev qeyd edib ki, bu məqsədlə 1992-ci ildə ATƏT-in Minsk qrupu təsis olunmuşdu, qrupun funksiyası münaqişənin həlli, işğala son qoymaq idi. Lakin əksinə, ATƏT-in Minsk qrupu, sadəcə, bir alətə çevrildi. Minsk qrupu ilə bağlı spekulyasiyalar sülh üçün dağıdıcı təsirə malikdir: "Artıq Azərbaycan işğala son qoyub, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib. Belə olduğu halda artıq Minsk qrupuna ehtiyac yoxdur, biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq. Lakin təəssüflər olsun ki, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər. Bildirmək istəyirəm ki, bu qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və bunu açıq-aydın şəkildə bildiririk. Düşünürəm ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

İkinci Qarabağ müharibəsindən sonra həm Rusiya, həm də ABŞ keçmiş Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün yaradılan ATƏT-in vasitəçilik institutunun - Minsk qrupunun tarixin arxivinə göndərilməsini təsdiqləyən məlumat yaydılar. Öncə bu addımı Rusiya atdı. Bu barədə danışan Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirdi ki, sabiq həmsədr İqor Xovayev yeni qisimdə - məhz Rusiya Federasiyası xarici işlər nazirinin Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına kömək məsələləri üzrə xüsusi nümayəndəsi kimi öz işini davam etdirəcək. Bunun ardınca rəsmi Vaşinqton bəyan etdi ki, həmsədr Endrü Şofer Qafqazda danışıqlar üzrə baş müşavir təyin edilib.

Beləliklə, Rusiyadan sonra rəsmi Vaşinqtonun da belə bir addımı atması Qarabağ münaqişəsinin tam həll olunmasının növbəti beynəlxalq etirafı oldu.

Son günlər yenidən bu məsələnin gündəmə gətirilməsi heç də qəbul edilən məsələ deyil. Proseslər göstərir ki, Qərb, o cümlədən ABŞ tərəfindən Minsk qrupunun fəaliyyətinin bərpası üçün cəhdlər var. Bu, əlbəttə ki, Qərbin siyasi riyakarlığının təzahürüdür. Çünki ləğv edilmiş yarıtmaz bir təsisatın yenidən yaradılmasına cəhd mənasız və qəbuledilməzdir.

Bu, Qərbin ikiüzlüyündən, şəxsi maraqlar naminə hər şeyə hazır olmasından xəbər verir. Buna misal gətirmək də çətin deyil. Elə təkcə Rusiya-Ukrayna müharibəsində tutduğu mövqeni göstərmək kifayətdir.

Aylardır Rusiyanı Ukraynaya təcavüzdə günahlandıran və rəsmi Moskvaya qarşı kəskin mövqe bildirən, onu düşmən adlandıran Qərb indi Qarabağ məsələsində Azərbaycanın maraqlarına qarşı Rusiya ilə sövdələşməyə hazır görünür. Qərbin Rusiya ilə separat danışıqlara başlaması və əks-hücum əməliyyatları üçün Ukraynaya kifayət qədər silah tədarük etməməsi onun siyasi riyakarlığını bir daha sübut edir. Prezident Zelenskinin istədiyi silahlar verilmir, amma bununla yanaşı, Qərb Ukraynadan son əsgərə qədər döyüşməsini gözləyir. Bu ağır vəziyyətin fonunda Qərb və Rusiya arasında Ukraynanın bölünməsi istiqamətində iş gedir.

Ancaq reallıq budur ki, bu dəfə Qərbin istədiyi olmayacaq. Azərbaycana qarşı ikili standartların tətbiqi, təzyiq, təhdid dili ilə danışmaq mümkün deyil. Minsk qrupu, Prezident İlham Əliyevin söylədiyi kimi, keçmişdə qaldı, Azərbaycan onun bərpa edilməsinə imkan verməyəcək. Minsk qrupunun fəaliyyətinin bərpası cəhdi Azərbaycan üçün qəbuledilməzdir. Ölkəmizə qarşı yeni vahid cəbhənin yaradılmasının qarşısı qətiyyətlə alınacaqdır. 30 illik işğal dövrü geridə qalıb. 44 günlük müharibədən sonra yeni reallıqlar yaranıb, indi regionda diktəni İlham Əliyev edir və Azərbaycan cəmiyyətində bu mövzu ilə bağlı tam həmrəylik mövcuddur.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# *Azərbaycan XİN:* "BQXK-nin humanitar mandatından siyasi məqsədlər üçün sui-istifadə edilməməlidir"

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) humanitar mandatına riayət olunmalı və ondan siyasi məqsədlər üçün sui-istifadə edilməməlidir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) BQXK-nin bölgədə humanitar vəziyyətlə bağlı iyulun 25-də səsləndirdiyi bəyanatına dair şərhində əksini tapıb.

Şərhdə həmçinin bildirilib ki, BQXK-nin bölgədə humanitar vəziyyət və komitənin fəaliyyəti ilə bağlı iyulun 25-də verdiyi bəyanat qeydə alınıb.

"Məlum olduğu kimi, cari il iyunun 15-də Laçın sərhəd-buraxılış məntəqəsinin atəşə tutulması, iyul ayında erməniəsilli sürücülərin Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus nəqliyyat vasitələrində qaçaqmalçılıq məhsullarını Azərbaycana gətirmək səyləri Ermənistan tərəfinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı növbəti qeyri-qanuni fəaliyyət, eləcə də sərhəd-keçid məntəqəsinin fəaliyyətinə maneçilik kimi qiymətləndirilərək, bu kimi pozucu tədbirlərə son qoyulması tərəfimizdən tələb olunub.

Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət cəhdlərinin qarşısını almaqla yanaşı, Azərbaycan tərəfi BQXK ilə vacib əməkdaşlığı davam etdirib. Azərbaycan tərəfinin BQXK ilə apardığı müzakirələrdən sonra zəruri qaydalara riayət etməklə, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinin davam etməsinə şərait yaradılıb və gün ərzində onlarla erməni sakin hər iki istiqamətdə sərhəd məntəqəsindən keçib.



Daha böyük miqdarda dərman preparatları və yüklərin daşınması, tədarükü üçün Azərbaycan tərəfindən Ağdam-Xankəndi yolundan istifadə etməklə yardım təklif olunub. Lakin buna baxmayaraq, təəssüflər olsun ki, erməni tərəfi təkidlə bu yoldan imtina edir.

Bununla yanaşı, erməni sakinlərin tibbi məqsədlər üçün Laçın sərhəd-buraxılış məntəqəsindən BQXK vasitəsilə keçidinin daha da asanlaşdırılması məqsədilə BQXK-nin həkiminin əraziyə getməsi ilə bağlı razılıq əldə olunmasına baxmayaraq, yerində bundan imtina olunması da təəssüf doğurur.

Erməni tərəfinin Azərbaycan tərəfindən atılan addımlara və dəstək niyyətinə, o cümlədən BQXK tərəfindən sözügedən bəyanatda da qeyd edildiyi kimi, Ağdam-Xankəndi və digər alternativ yollardan istifadə edilməsi təkliflərinə qarşı çıxması bölgədə "gərgin humanitar vəziyyət" iddialarının siyasi manipulyasiya və təzyiq vasitəsi olduğunu bir daha sübut edir", - deyə XİN-in şərhində vurğulanıb.

# *XİN:* "Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyətlərini davam etdirmək məqsədi güdür"

Ermənistanın baş nazirinin bölgənin azərbaycanlı əhalisinə etnik təmizləmə və soyqırımı da daxil olmaqla, ən ağır müharibə və insanlıq əleyhinə cinayətlərin törədilməsi yolu ilə Ermənistan tərəfindən yaradılmış qondarma rejimi "demokratik yolla seçilmiş hakimiyyət" adlandırması Ermənistan rəsmilərinin 30 ilə yaxın davam edən işğalçı siyasətdən və əməllərdən əl çəkmədiklərinin bariz nümunəsidir.

Ermənistanın baş naziri Paşinyanın bu fikirləri həmçinin onun "Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanındığına" dair bəyanatına tamamilə ziddir.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın Fransanın "Le Monde" qəzetinə müsahibəsində səsləndirdiyi iddialara dair şərhində deyilir.

Bildirilib ki, bölgədə Azərbaycana qarşı qanunsuz fəaliyyətin aparılmasını çətinləşdirən Laçın sərhəd-buraxılış məntəqəsinin aradan qaldırılmasını tələb edən, təcavüzkar siyasəti və separatizmi dəstəkləyən Ermənistan tərəfi anlamalıdır ki, Azərbaycanın Laçında məntəqə təsis etməsi tamamilə beynəlxalq hüquq çərçivəsindədir. Bu addım Ermənistanın pozucu fəaliyyətinin qarşısını almaq məqsədilə atılıb və bu məntəqənin mövcudluğu müzakirə mövzusu deyil. Beynəlxalq Ədalət Məhkəməsi də Ermənistanın məlum tələbini 6 iyul tarixli qərarı ilə yekdilliklə rədd edərək bir daha təsdiqləyib ki, Azərbaycanın sərhəddə buraxılış məntəqəsi təsis etməsi tamamilə suveren və legitim bir qərardır.

Bununla yanaşı, Azərbaycan tərəfindən irəli sürülmüş və beynəlxalq aktorlar, o cümlədən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel tərəfindən müsbət qarşılanmış Qarabağ bölgəsinin erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadə olunması təklifindən Ermənistan tərəfinin imtina etməsi bölgədə "gərgin humanitar vəziyyət" iddiasının reallığı əks etdirmədiyini göstərir. Bu, həmçinin Ermənistanın əsl niyyətinin vəziyyətdən siyasi şantaj məqsədilə sui-istifadə etmək olduğunu nümayiş etdirir. Ermənistan Azərbaycan ərazisində qanunsuz fəaliyyətlərini davam etdirmək məqsədi güdür.

Ermənistanın baş nazirinin bölgədə Beynəlxalq Qırmızı Xaç Komitəsinin fəaliyyətini, hər gün onlarla erməni sakinin məntəqədən hər iki istiqamətdə keçməsini və Azərbaycanın Ağdam-Xankəndi marşrutu daxil olmaqla, alternativlər irəli sürməsini gözardı edərək, "blokada" barədə məlumatlar yayması beynəlxalq ictimai rəyi manipulyasiya etmək cəhdidir.

Qeyd olunub ki, 30 il müddətində beynəlxalq hüququn bütün norma və prinsiplərini kobud şəkildə pozaraq Azərbaycana qarşı davam etdirdiyi təcavüzə, etnik təmizləmə siyasətinə qarşı beynəlxalq təşkilatların xəbərdarlıqlarını, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini heçə sayan Ermənistanın Azərbaycana qarşı beynəlxalq səviyyədə tədbirlər görməyə çağırış etməsi absurddur və riyakarlıqdır.

Azərbaycanın öz suveren ərazilərində yaşayan ermənilərin reinteqrasiyası tədbirlərinə Ermənistan rəsmilərinin müdaxilə cəhdlərinə son qoyulması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün sözdə və əməldə Ermənistan tərəfindən qeyd-şərtsiz təsdiqlənməsi bölgədə sülhün təmin edilməsi üçün ən zəruri şərtdir.

"Ermənistan rəhbərliyinin Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü hər hansı bir bəhanə ilə şərtləndirməsi qətiyyən qəbuledilməzdir, iki ölkə arasında münasibətlərin normallaşmasına yönəlmiş səylərə zərbədir və bölgədə gərginliyin saxlanmasına xidmət edir. Ermənistan tərəfi, nəhayət, anlamalıdır ki, bölgədə sülh və sabitliyin bərpa edilməsinə törətdiyi maneçilik səyləri heç bir nəticə verməyəcək. Ermənistan tərəfini təxribatçı addımlara və bəyanatlara son verməyə, beynəlxalq öhdəliklərinə əməl etməyə çağırırıq", - deyə şərhdə diqqətə çatdırılıb.

# Azərbaycanın təklifini Avropa İttifaqı təqdir edir

## Ermənilərin Ağdam-Xankəndi yolundan istifadədən imtina etmələri siyasi spekulyasiyadır

Azərbaycan tərəfindən irəli sürülmüş və beynəlxalq aktorlar, o cümlədən Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel tərəfindən müsbət qarşılanmış Qarabağ bölgəsinin erməni sakinlərinin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadə edilməsi təklifindən Ermənistan tərəfinin imtina etməsi bölgədə "gərgin humanitar vəziyyət" iddiasının reallığı əks etdirmədiyini göstərir.

Bu barədə Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın Fransada çıxan "Le Monde" qəzetinə müsahibəsində səsləndirdiyi fikri şərh edən zaman bildirib. Qeyd edilib ki, bu həmçinin Ermənistanın əsl niyyətinin vəziyyətdən siyasi şantaj məqsədilə sui-istifadə etmək olduğunu nümayiş etdirir. Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyətlərini davam etdirmək məqsədi güdür.

Ermənistanın baş nazirinin bölgədə Beynəlxalq Qızıl Xaç Komitəsinin fəaliyyətini, hər gün onlarla erməni sakinlərin məntəqədən hər iki istiqamətdə keçməsini və Azərbaycanın Ağdam-Xankəndi marşrutu daxil olmaqla, alternativlər irəli sürməsini gözardı edərək, "blokada" barədə məlumatlar yayması beynəlxalq ictimai rəyi manipulyasiya etmək cəhdidir.

Məlum olduğu kimi, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Draqana Kojiç arasında görüş zamanı Laçın sərhəd-buraxılış məntəqəsində yaranmış son vəziyyət, habelə BQXK-nin Azərbaycanın Xankəndi şəhərində fəaliyyəti məsələləri müzakirə olunub. Nazir Ceyhun Bayramov Laçın sərhəd-buraxılış məntəqəsinin fəaliyyəti ilə bağlı yaranmış son vəziyyətlə əlaqədar bildirib ki, 15 iyun tarixdə məntəqənin atəşə tutulması ilə yanaşı, erməniəsilli sürücülərin Beynəlxalq Qızıl Xaç Komitəsinə məxsus nəqliyyat vasitələrində qaçaqmalçılıq məhsullarını Azərbaycana gətirmək səyləri Ermənistan tərəfinin Azərbaycanın suverenliyinə müdaxilə edən cəhdlərdən və qeyri-qanuni fəaliyyətlərdən əl çəkmək niyyətinin olmadığını göstərir.

BQXK-nin 11 iyul tarixli açıqlamasında bəyan edilməmiş məhsulların keçirilməsi fəaliyyətlərini dəstəkləmədiyini diqqətə çatdırmasının və belə yükləri daşıyan nəqliyyat vasitələrinin sürücülərinin xidməti müqavilələrinə xitam verilməsinin qeydə alındığı bildirilib. Gələcəkdə bu kimi halların qarşısının alınmasının zəruri olduğu vurğulanıb.

Aparılmış müzakirələr zamanı zəruri qaydalara riayət etməklə, BQXK vasitəsilə erməni sakinlərin tibbi məqsədlər üçün sərhəd məntəqəsindən keçidinin davam etməsinin mümkünlüyü nazir Ceyhun Bayramov tərəfindən bildirilib.

Erməni sakinlərin tədarük ehtiyaclarına gəldikdə, Azərbaycan tərəfinin Ağdam-Xankəndi yolundan istifadə etməklə yardım göstərmək imkanının mövcud olduğu bir daha xatırlanıb.

Bildirildiyi kimi, Azərbaycanın Qarabağda yaşayan ermənilərin ərzaq və humanitar yardım tədarükü üçün Ağdam yolundan istifadə etməsi ilə bağlı təklifi Brüssel görüşündə Avropa İttifaqı Şurası prezidenti Şarl Mişel tərəfindən də dəstəklənib. Bəs Qarabağ erməniləri "gərgin humanitar vəziyyət"lə üzləşiblərsə, Azərbaycanın Ağdam yolundan istifadə etməsi təklifi ilə niyə razılaşmırlar?

Qarabağda yaşayan ermənilərə ərzaq tədarükünün Ağdam yolu ilə həyata keçirilməsi logistik baxımdan daha sərfəlidir. Belə ki, Ağdam yolu daha qısadır və daşınma daha ucuz başa gəlir. Ermənistanda ƏDV-si ödənilmiş mallar nə üçün humanitar yardım adı altında Azərbaycan ərazisinə gətirilməlidir və Ermənistan bundan niyə qazanmalıdır?

Aydındır ki, ermənilərin bu yoldan istifadədən imtina etməsi siyasi spekulyasiyadır və rasist yanaşmanın göstəricisidir. Azərbaycandan gətiriləcək qida məhsullarının keyfiyyəti Ermənistan ərazisindən gələn məhsulların keyfiyyətindən qat-qat üstün olacaq. Ermənilərin heç bir normal arqumenti yoxdur. Bəzi xəstə təxəyyüllü haylar əhalini Azərbaycandan gətirilən ərzağın zəhərli olacağı ilə qorxudurlar. Bu, yalnız erməni xislətinin təxəyyülüdür. Görünür, onların özlərinin belə bir qeyri-insani üsullara əl atmaq niyyəti mövcuddur. Çünki Azərbaycan heç müharibə zamanı da düşməni zəhərləməyib, ermənilər kimi dinc əhaliyə qarşı kasetli bombalardan istifadə etməyib. Yalnız erməni barbarları belə çirkinliklərə əl ata bilərlər. Azərbaycanın Qarabağın erməni əhalisinə qarşı hər hansısa bir təxribatı qeyri-mümkündür. Çünki dövlətin siyasəti humanizm prinsiplərinə əsaslanır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Prezident İlham Əliyevdən Ermənistana son şans

## Əgər İrəvan hazırkı mühüm məqamdan düzgün yararlanmasa, onun doğurduğu ağır nəticələrə qatlanmalı olacaq

"Ermənistan son addımını atmalıdır". İyulun 21-23-də mədəniyyət paytaxtımızda keçirilmiş "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumunun açılışında Ermənistana sərt xəbərdarlıq edən Prezident İlham Əliyev qətiyyətlə bəyan etdi ki, onlar artıq qəbul etdikləri "Qarabağ Azərbaycandır" reallığını sənədə imza atmaqla faktiki olaraq təsdiqləməlidirlər: "Bu, sonuncu mühüm məqamdır. Əgər bu addım atılsa, - danışıqlar heyəti və xarici işlər nazirləri səviyyəsində danışıqlar gedir, bilirsiniz ki, növbəti danışıqlar yaxın günlərdə Moskvada baş tutacaq, - Ermənistan bu bəndlə razılaşsa və Azərbaycana qarşı hər hansı ərazi iddialarından imtina etsə, bu sazişin ilin sonunadək imzalanması kifayət qədər mümkündür. Lakin bu olmasa, biz onları məcbur edə bilmərik..."

### Zəfər qalasından dünyaya verilən mühüm mesajlar

Ötən həftə zəfər qalamızda təşkil olunan və dünyanın dörd bir yanından media nümayəndələrini bir araya toplayan, müxtəlif aktual bəşəri mövzuların müzakirə olunduğu "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumu həm də ölkəmiz adına xeyli mühüm və əlamətdar məqamlarla yadda qaldı. İlk növbədə sözügedən tədbirin məhz Qarabağın mirvarisi Şuşada təşkil olunması ilə artıq bu tarixi Azərbaycan şəhərinin dirçəldilməsinin, mədəni, mənəvi ruhunun özünə qaytarılmasının rəmzi mesajı verildi.

Bu mötəbər media tədbiri vasitəsilə beynəlxalq aləmə bir daha Azərbaycan həqiqətləri çatdırıldı, Cənubi Qafqazda baş verənlər olduğu kimi dünya mediasının gündəminə daşındı.

Forumun açılış günündə media mənsubları tərəfindən müxtəlif mövzularla bağlı verilən suallara Prezident İlham Əliyevin dərin təhlilə əsaslanan, faktlara, dəlillərə dayanan sərrast cavabları beynəlxalq medianın gündəm mövzusuna çevrildi.

Xüsusilə postmüharibə dövründə Ermənistanla Azərbaycan arasında aparılan sülh danışıqları prosesi ilə bağlı ətraflı məlumat verən, rəsmi Bakının Vətən müharibəsinin üzərindən ötən müddət ərzində iki ölkə arasında normallaşmaya nail olunması baxımından kifayət qədər konstruktivlik nümayiş etdirməsindən danışan dövlət başçısı həm də beynəlxalq media vasitəsilə bir daha dünyaya bəyan etdi ki, indiyə qədər sülhə nail olunmamasının yeganə səbəbi Ermənistanın hələ də Azərbaycana qarşı ərazi iddiası güdməsidir. Lakin Prezident onu da əlavə etdi ki, ermənilərin bu mənfur iddiaları elə onların özü üçün ağır nəticələr verə bilər: "Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır".

Dövlət başçısı onu da xüsusi vurğuladı ki, 28 il ərzində onları məcbur edə bilməmişik ki, beynəlxalq hüquqa riayət etsinlər. Yalnız bunu güc hesabına məcbur etdik. Lakin bu halda sülh olmayacaq. Bu, bölgə üçün heç də yaxşı ssenari deyil, sabitliklə, təhlükəsizliklə nəticələnməyəcək. Eyni zamanda çox həssas geosiyasi vəziyyəti nəzərə alsaq, gələcəkdə də çətinliklər yaradacaq.

### Ermənistan mövcud reallıqları qəbul etməlidir

Vətən müharibəsində hərb meydanında ədaləti güc yolu ilə təmin edən Azərbaycan zəfərdən dərhal sonra Ermənistana təkmil sülh modeli təklif edib. Ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərinə söykənən 5 baza prinsipi irəli sürüb, sülh müqaviləsinin yalnız bu tələblər yerinə yetiriləcəyi halda mümkün olduğunu bildirib.

Lakin 10 noyabr üçtərəfli Bəyanatında da tövsif olunmasına baxmayaraq, Ermənistan hələ də öz silahlı tör-töküntülərini Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Qarabağ ərazisindən çıxarmayıb və hazırda nümayiş etdirdiyi yaramaz fəaliyyətlə heç bu niyyətdə olmadığını da ortaya qoymuş oldu. Xarici ölkələrin poliqonuna çevrilmiş Ermənistan Azərbaycanın beynəlxalq hüquqa əsaslanaraq Laçın yolunda sərhəd-buraxılış məntəqəsini qurmasına "blokada" donu geyindirməyə çalışır, ölkəmizin alternativ Xankəndi-Ağdam yolu təklifini gözardı edir, separatçılara açıq dəstək verir.

Bütün bu faktlar Ermənistanın rəsmi şəkildə bəyan etməsinə baxmayaraq, "Qarabağ Azərbaycandır" həqiqətini qəbul etmədiyinin, xarici havadarlarına güvənərək revanş hisslərinə qapıldığının, ölkəmizə ərazi iddiası etməsinin əyani göstəricisidir.

O da faktdır ki, Qarabağda hakimiyyəti ələ keçirmiş xunta Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazidə yaşayanları girov götürüb.

"Biz İkinci Qarabağ müharibəsinin başlanmasına qədər iki il müddətində erməni rəhbərliyinə də şans vermişik, amma onlar bundan istifadə etmədilər", - deyə I Şuşa Qlobal Media Forumunda çıxış edən Prezident İlham Əliyev beynəlxalq media mənsublarının diqqətinə çatdırdı ki, Azərbaycanın atdığı bütün addımlar məntiqli, əsaslandırılmış, müdrik və kifayət qədər cəsarətli idi. Bu səbəbdən sərhəddə nəzarət-buraxılış məntəqəsinin qoyulması postmünaqişə dövründə mühüm mərhələ idi və şəraiti əhəmiyyətli dərəcədə dəyişdi: "Bu da bir mesaj idi. Lakin biz neçə dəfə mesaj göndərməliyik, neçə dəfə işarə etməliyik? Məgər bunlar artıq az idi? Həm Fərrux əməliyyatı, həm 2021-ci ilin mayında Ermənistan-Azərbaycan sərhədində vəziyyət, həm 2022-ci ilin sentyabrında sərhəddə vəziyyət, həm də nəzarət-buraxılış məntəqəsi. Axı biz neçə dəfə onlara mesaj verməliyik? Məgər belə anlamazdırlar?"

Prezident onu da söylədi ki, Qarabağda yaşayan erməni sakinlərin yenidən inteqrasiyası məsələsi bu yanlışlardan, onları girov götürən, qul kimi istismar edən bu xuntadan nə vaxt qurtula biləcəyindən asılıdır: "İşğal dövründə vasitəçilər mənə dəfələrlə deyirdilər ki, "Birinci Qarabağ müharibəsi belə qurtarıb, siz reallıqları qəbul etməlisiniz". Lakin mən onları qəbul etmirdim və etmədim. Ancaq indi mən yenə də deyirəm: gəlin bu reallıqları qəbul edin, bu reallıqların dəyişməsi baş verərsə, bu, yalnız və yalnız nə Ermənistan, nə də Qarabağın erməni azlığı üçün yaxşı olmayacaq. Bu səbəbdən ümid edirəm ki, onlar bu sözləri eşidəcək və düzgün nəticə çıxaracaqlar".

### "Dağlıq Qarabağ respublikasını" Marseldə qurub elan etsinlər, biz də tanıyaq"

Prezident İlham Əliyev iyulun 25-də Çinin "China Media Group" Media Korporasiyasına verdiyi müsahibəsində də vurğulayıb ki, sülh müqaviləsinin bağlanması ilə bağlı fikir ayrılığının yeganə əsas müddəası onunla bağlı idi ki, Ermənistan Qarabağı rəsmən Azərbaycanın hissəsi kimi tanısın: "Artıq dediyim kimi, bir - onlar qeyd etməlidir ki, Qarabağ Azərbaycandır və indi isə, onlar ikincini etməlidirlər: imzalamalıdırlar. Bundan sonra razılaşma əldə oluna bilər və düşünürəm ki, əgər ermənilər söylədiklərini yerinə yetirərlərsə və əgər bu, yenidən siyasi manevr deyilsə, prosesi yubatmaq cəhdləri naminə ixtira edilən hekayət deyilsə, onda biz ilin sonuna qədər sülh müqaviləsinə nail olaraq onu imzalaya bilərik".

Sözügedən müsahibəsində Fransanın Ermənistanın ən böyük vəkilinə, Avropada ən iri anti-Azərbaycan mənbəyinə çevrildiyini söyləyən ölkə rəhbəri qeyd edib ki, onlar bizi öz ərazimizdə gördüyümüz işlərə görə ittiham edirlər. Korsika dilinə qadağa qoyan, Korsikada öz müqəddəratını təyinetmə hərəkatını qəddarcasına boğan Fransa Qarabağda ermənilərin "öz müqəddəratını təyin etmələrini" təşviq edirlər: "Bu necə ola bilər? Müharibə zamanı siyasi təcavüz bütün sərhədləri aşanda, dedim ki, əgər onlar "Dağlıq Qarabağ respublikasını" haradasa qurmaq istəsələr, qoy öz ərazisində qursunlar. Məsələn, çoxlu ermənininin yaşadığı Marsel şəhərinin ətrafında qurub, "Dağlıq Qarabağ respublikasını" orada elan etsinlər, biz də tanıyaq".

Prezident müsahibəsində onu da bildirdi ki, Azərbaycandakı erməni azlığının hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyası əsasında lazımınca qorunacaq.

### "Biz hər şeyi düzgün etmişik"

Prezident İlham Əliyevin əzmi, qətiyyəti, müdrik siyasəti nəticəsində hərb meydanında, beynəlxalq hüquq müstəvisində məğlub olan Ermənistan qlobal media platformasında da ifşa olundu. Təcavüzkar üzərində ard-arda çalınan bütün bu qələbələr isə Azərbaycanın öz milli maraqlarını beynəlxalq hüququn norma və prinsiplərinə uyğun ardıcıllıqla və qətiyyətlə təmin etməsinin parlaq təzahürləridir.

Necə ki bunu Qarabağın zəfər zirvəsi Şuşada keçirilən I Şuşa Qlobal Media Forumunun açılışında qalib lider İlham Əliyev dünyanın nəzərinə yetirdi: "Əgər bizim bütün fəaliyyətimizin xronologiyasını izləsəniz, hətta İkinci Qarabağ müharibəsinin başlanmasına qədər getsəniz, siz bizim haqlı olduğumuzun məntiqini və güclü arqumentini görəcəksiniz. Biz utana biləcəyimiz və ya "bəli, bax, burada biz haqsızıq" deyəcəyimiz heç bir şey etməmişik. Biz hər şeyi düzgün etmişik".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan heç zaman forposta çevrilməyib

## Prezident İlham Əliyev çoxmilyonluq auditoriyası olan "China Media Group"a qlobal həqiqətləri açıqlayıb

Prezident İlham Əliyev iyunun 20-də Çinin "China Media Group" Media Korporasiyasına verdiyi müsahibədə bir sıra vacib məqamlara toxunaraq Azərbaycana qarşı edilən ədalətsizlikləri də diqqətə çəkib. Prezident bu ədalətsiz yanaşmaya gətirib çıxaran amillərin müxtəlif olduğunu bildirib.





"Əsas olmasa da həmin amillərdən biri Birləşmiş Ştatlarda, Fransada və bəzi digər Qərb ölkələrində erməni lobbisinin böyük infrastruktura malik olmasıdır. Onlar dövri olaraq Azərbaycana hücum çəkirlər, siyasətçiləri ələ alırlar, onların cəmiyyətinə, parlamentinə, mətbuatına və hökumət orqanlarına yol tapırlar. Bütün oxları Azərbaycana tuşlayırlar və bir növ Azərbaycanofobiya mühitini yaradırlar. Lakin bu, yeganə səbəb deyil. Düşünürəm, əsas səbəb ondan ibarətdir ki, Azərbaycan öz milli maraqlarına əsaslanan müstəqil siyasət yürüdür", - deyə ölkə lideri qeyd edib.

Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

### Azərbaycan hansısa güc mərkəzlərindən idarə olunmur

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri, deputat Zahid Oruc deyib ki, vaxtilə Qərb Qafqazı ələ keçirə bilsəydi, burada qüvvələr nisbəti Avropanın xeyrinə dəyişəcəkdi. Belə olan halda Qərb Rusiyanın, İranın, hətta Türkiyənin mövqeləri ziddinə siyasətini həyata keçirəcəkdi. Lakin Azərbaycan həmin dövrdə bu prosesin qarşısını aldı. İnqilab məhz Bakıda iflasa uğradı.

"Sonrakı dövrdə zaman-zaman ölkəmiz əleyhinə beynəlxalq hücumların sistemli xarakter aldığını müşahidə etdik. Sinxronlaşmış qaydada Azərbaycanın gah Qarabağ problemi, gah insan haqları, gah da korrupsiya məsələləri, məmurların fəaliyyəti və sair kontekstlər daim beynəlxalq gündəmi təşkil etməyə başladı. Bir sıra qurumlar, xüsusilə 2008-2020-cu illərdən başlayaraq fəal şəkildə ölkəmizi müxtəlif hesabatlarda ən aşağı yerlərə qoymağa başladılar. Bu, açıq şəkildə ölkələr üzərində dominantlıq qazanmaq, onları idarə etmək niyyətindən irəli gəlirdi", - deyə komitə sədri bidirib.

Zahid Oruc hesab edir ki, yaxın qonşuluq siyasəti, tərəfdaşlıq, heç bir halda bölgəni necə istəyirsən elə idarə etmək, lazım gələrsə parçalamaq, öz mənafelərinə tabe etmək üzərində aparılmamalıdır: "Prezident İlham Əliyev uzun on illərdir bəyan edir ki, Azərbaycan hansısa paytaxtlardan və ya mərkəzlərdən asılı deyil. Bizi qələbəyə aparan da məhz həmin kurs oldu ki, Azərbaycan heç zaman ikinci və ya üçüncü dövlətlərin forpostuna çevrilməyib".

Zahid Orucun sözlərinə görə, Vətən müharibəsindən sonra Qərbin Azərbaycana qərəzli münasibəti daha da artıb: "Çünki İkinci Qarabağ savaşından sonra ölkəmiz gücləndi, hərbi siyasi mövqeyimiz nəinki regionda, ümumilikdə dünyada bizə olan münasibəti keyfiyyətcə yeni mərhələyə daşıdı. Belə şəraitdə vaxtilə hökumətləri devirib yerinə yeni iqtidarları gətirən qüvvələr Azərbaycan rəhbərliyini daha sərt şəkildə hədəfə çevirdilər. Beləliklə, postmüharibə dövründə ölkəmiz əleyhinə çirkli kampaniyalarını genişləndirdilər".

Komitə sədri qeyd edib ki, bu qarayaxmalar heç bir siyasi nəticə vermədi: "Bu, sadəcə olaraq, qlobal ləkələmədən başqa heç nə deyildi. Bu bir daha sübut etdi ki, Azərbaycan hansısa güc mərkəzlərindən idarə olunmur. Prezident İlham Əliyev özünün xarakterinə, yüksək liderlik qabiliyyətinə arxalanaraq ölkəmizi irəli aparmaqda davam edir. Əminəm ki, bu, sülh müqaviləsinin imzalanmasına və bütövlükdə Qafqazda yeni arxitekturanın qurulmasına da yol açacaq. Bütün dünya şahidi olacaq ki, müxtəlif siyasi məsələləri önə çıxarmaqla, onları xarici məkanda müzakirə edib Azərbaycan əleyhinə qərar və qətnamələr qəbul etməklə heç nəyi dəyişmək mümkün deyil".

### Erməni lobbisi xarici ölkələrdə Azərbaycanofobiya mühiti yaradır

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, bu gün dünyanın yüksələn gücü olan Çinin qlobal siyasətə təsir imkanları mübahisəsizdir. Belə bir şəraitdə Çin mediasının Azərbaycana artan marağı, 7 ay ərzində bu ölkənin iki transmilli media strukturunun Prezident İlham Əliyevə müraciəti həm də ölkəmizin nüfuzunun və cənab İlham Əliyevin qlobal miqyaslı lider kimi ciddi təsir imkanlarının artdığını göstərir.

Deputat qeyd edib ki, Azərbaycan Prezidenti bütün platformalarda olduğu kimi, Çinin "China Media Group" Media Korporasiyasına müsahibəsini də şaxələndirilmiş hücum siyasətinin möhtəşəm həlqəsinə çevirə bildi: "Azərbaycan və Çinin təqribən oxşar tarixi inkişaf yolu keçməsi, imperialist niyyətlərlə üzləşməsi və cənab İlham Əliyevin məharətlə bu hücumların qarşısını alması Çin mediasının diqqətindən yayına bilməzdi. Çinli jurnalistin müqayisə aparmaq niyyəti də məhz bu reallıqdan irəli gəlirdi".

Çoxmilyonluq auditoriyası olan "China Media Group" izləyiciləri üçün Azərbaycan Prezidentinin 3 ciddi qlobal həqiqəti ortaya qoyduğunu söyləyən B.Məhərrəmov onlardan birincisinə diqqət çəkib: "Əvvəla, "demokratiya" "humanizm", "insan haqları" idealları ilə pərdələnən qlobal güclər, əslində, ikili standartlarla yaşayan riyakar imperialistlərdir. Cənab Prezidentin ifadə etdiyi kimi, "Bəzi ölkələrdən fərqli olaraq, Azərbaycanın prioritetlərimizə və milli maraqlarımıza cavab verməyən hər hansı işə qoşulmaması, müstəqil davranması, müstəqil siyasətimizin olması" bu subyektlərin neoimperialist niyyətləri ilə üst-üstə düşmür. Nəticədə Azərbaycan hədəfə alınır, lakin biz istər 44 günlük savaşda birbaşa döyüş meydanında, istərsə də postmüharibə dövründə diplomatik səviyyədə bütün düşmən meyilləri yerinə oturda bilmişik".

Deputat əlavə edib ki, ikinci mühüm məqam, bəşəri niyyətlərlə yaradıldığı iddia edilən "Human Rights Watch", "Amnesty International" və "Freedom House" və sairə bu kimi beynəlxalq təşkilatların, əslində, iri dövlətlərin əlində, sadəcə, alət olmasıdır. Həmin təşkilatlar bir sıra güclərin təlimatları ilə Azərbaycanı davamlı olaraq muzdlu mətbuatın hədəfinə çevirir, "müstəqil" QHT-lərin hücumuna məruz qoyurlar. Lakin dövlət başçısının da ifadə etdiyi kimi, "Biz əlimizdə olan bütün vasitələrlə özünəməxsusluğumuzu və ləyaqətimizi müdafiə edəcəyik" və görünən odur ki, Prezident İlham Əliyev bu prosesdə də qalibdir".

B.Məhərrəmovun dediyinə görə, dövlət başçısının Çin auditoriyası ilə bölüşdüyü digər mühüm məqam isə Birləşmiş Ştatlarda, Fransada və bəzi Qərb ölkələrində erməni lobbisinin terrorçu-təxribatçı fəaliyyəti ilə bağlı oldu. Böyük əksəriyyəti terror birləşmələrinin üzvü olan erməni lobbisinin adıçəkilən ölkələrdə infrastruktura malik olması, siyasətçiləri ələ alması, parlamentə, mətbuata və hökumət orqanlarına yol tapması bir çox hallarda Azərbaycanofobiya mühitinin yaradılması üçün əsas ola bilir. Lakin Vətən müharibəsində məhz erməni diasporunun yerlə-yeksan edilməsi erməni diasporu mifinə də artıq son qoyur.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Xarici kütləvi informasiya vasitələri Qarabağda "humanitar fəlakət" ilə bağlı yalanları ifşa edirlər

Bir çox xarici KİV-lər Laçın yolu ilə bağlı vəziyyət və Qarabağ separatçılarının regionda, guya, "humanitar fəlakət" barədə yalan bəyanatlarını ifşa edən materiallar dərc edirlər. Məqalələrdə Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizə humanitar yüklərin çatdırılması imkanı barədə Avropa İttifaqının bəyanatından sonra separatçı rejimin artan spekulyasiyalarına xüsusi diqqət yetirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə xüsusilə Rumıniyanın **"DIGI24"** və Bolqarıstanın **"sofiaglobe"** nəşrləri, eləcə də Ukraynanın **"ukranews.com"** portalında ətraflı bəhs olunub. Həmin nəşrlərdə yayımlanan və siyasi icmalçı Svetlana Kuşnirin müəllifi olduğu məqalədə deyilir ki, Qarabağda separatçılar "Aİ-nin Azərbaycanın Qarabağ bölgəsinin erməni anklavına humanitar yüklərin çatdırılması üçün əlavə yolun açılması haqqında bəyanatından sonra" humanitar marşrutu bağlayıblar.

Müəllif qeyd edir ki, Avropa Şurasının prezidenti Şarl Mişel Bakının Azərbaycanın Ağdam şəhəri vasitəsilə Qarabağın erməni əhalisinə humanitar yardımın çatdırılmasını təşkil etmək niyyəti barədə bildirib. Materialda deyilir: "Şarl Mişelin Azərbaycanın əlavə marşrut açmağa hazır olması barədə bəyanatına cavab olaraq "Artsaxın təhlükəsizliyi və inkişafı cəbhəsi" rusiyapərəst hərəkatının nümayəndələri iyulun 18-də Ağdamdan Xankəndiyə gedən yolu beton bloklarla bağlayıb, burada "aclıq və humanitar fəlakət"in hökm sürdüyünü bildirirlər. Bu bəyanatlar Xankəndidə korporativ məclislər üçün asanlıqla ət, balıq, pendir, desertlər sifariş etdiyini deyən ukraynalı deputat Vladimir Kreydenkonun araşdırması ilə təkzib edilir".

Latviyanın **"La.lv"** portalı isə öz növbəsində oxucuların diqqətini "Artsaxın təhlükəsizliyi və inkişaf cəbhəsi" adlandırılan qurumun rusiyalı oliqarx Ruben Vardanyan tərəfindən təsis edilməsinə yönəldir. Bu barədə Ukraynanın **"Censor", "Politeka.net", "Ukranews"** və **"Kr"** kimi xəbər saytları da xəbər verir. "Kr" bildirir ki, "Kreml Ukrayna Donbası, Gürcüstan Cənubi Osetiyası və Moldova Dnestryanı ssenarisi üzrə Qarabağda Ermənistan-Azərbaycan münaqişəsini dondurmağa çalışır. O, yalnız bu yolla öz mövqelərini, o cümlədən Cənubi Qafqazda və Şərqi Avropadakı hərbi mövcudluğunu qoruyub saxlaya biləcək".

Nəşrlərdə qeyd edilir ki, "Rusiyanın separatçı anklavların köməyi ilə nəzarətə götürməyə çalışdığı digər postsovet ölkələrində olduğu kimi, Ermənistan-Azərbaycan danışıqlar prosesində də əsl vasitəçi Aİ və ABŞ-dir".

"Sülh sazişinin bağlanması Rusiya Prezidenti Vladimir Putini Cənubi Qafqazdakı mövqeyindən məhrum edəcək və İrəvanın son olaraq Qərbə yönləndirilməsinə töhfə verəcək", - deyə Svetlana Kuşnir "Ukranews"da dərc olunmuş məqaləsində yazır.

ABŞ-nin nüfuzlu **"The Washington Times"** qəzetində dərc olunan məqalənin müəllifi də bu fikirlə şərikdir. Məqalədə qeyd olunur: "Rusiya Cənubi Qafqazda etnik münaqişə ocaqlarının sönməməsi üçün Qarabağdakı erməni azlığını manipulyasiya etməyə çalışır".

Öz növbəsində ingilis dilində nəşr olunan Rumıniyanın **"Romanian Newsweek"** həftəlik jurnalı vurğulayır: "Bu, [erməni separatçılarından Qarabağda istifadə olunması] Moskvaya Cənubi Qafqazda hərbi mövcudluğunu saxlamağa imkan verir".

Gürcüstanın **"Primetime"** və **"Nyushub"** nəşrləri ona diqqət çəkirlər ki, Moskvadan fərqli olaraq Avropa İttifaqı Cənubi Qafqazda sülhdə maraqlıdır. Çünki Avropa İttifaqı regional nəqliyyat marşrutları, xüsusən də Zəngəzur dəhlizi vasitəsilə Rusiyadan yan keçməklə Çinə birbaşa tranzit imkanı əldə edəcək.

Eyni mövzuya **"Moldova-1"** televiziya şousunun buraxılışında da toxunulub. Burada bildirilir: "Bu dəhlizin açılması Avropa İttifaqına Rusiyadan yan keçməklə, Türkiyə, Azərbaycan, Xəzər dənizi və Mərkəzi Asiya vasitəsilə Çinlə birbaşa nəqliyyat əlaqəsi yaratmağa imkan verəcək".

Avropa və ABŞ KİV-lərində qeyd edilir ki, bu həmçinin Azərbaycana Avropa İttifaqının əsas enerji tərəfdaşına çevrilməsinə, Avropaya isə Rusiya qalıq yanacağından məhrum olmağı kompensasiya etməyə imkan verəcək.

# Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə görüş keçirilib

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti tərəfindən Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında yenidən tikiləcək şəhər, qəsəbə və kənd yaşayış məskənlərinin sakinləri ilə görüşlər davam edir.

AZƏRTAC xəbər verir ki, növbəti görüş Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə keçirilib.

Belə görüşlərin əsas məqsədi ərazilərin tarixi, mədəni irsi və sosial dəyərləri, digər xüsusiyyətləri barədə ətraflı məlumat toplamaq və yaşayış yerlərinin yeni konsepsiyasını sakinlərə təqdim etməkdir.

Qubadlı rayonunun Mahruzlu kəndinin nümayəndələri ilə keçirilən görüşdə kənd sakinlərinə layihələndirilən ərazi barədə ətraflı məlumat təqdim olunmuş və onları maraqlandıran suallar cavablandırılıb. Bundan başqa, sakinlərin öz kəndləri barədə istək və təklifləri dinlənilib, onlarla fikir mübadiləsi aparılıb.

# Revanşistlər reallıqla barışmaq istəmirlər

## Keçmiş hərbi xunta təmsilçilərinin iştirakı ilə etiraz aksiyaları davam edir

Hayastanda revanşist qüvvələr sülh müqaviləsinin imzalanması prosesinin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən onu aşkar şəkildə nümayiş etdirirlər. Eyni zamanda buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Çünki etiraz aksiyalarından yararlanmağa çalışan, ölkədə nüfuzunu itirən keçmiş hərbi xunta nümayəndələrinin sərsəmləmələrinə böyük əksəriyyət önəm belə vermir.

Dünən Xankəndidə və İrəvanda revanşist qüvvələrin iştirakı ilə etiraz aksiyaları davam edib. Aksiyalarda Laçın-Xankəndi yolunun açılması, Qarabağın "blokada"sına son qoyulması tələb edilib. Onlar, guya, Qarabağda humanitar böhranın olduğunu iddia edərək bunun aradan qaldırılmasını tələb ediblər. Bir qrup insan əllərində plakat İrəvanın mərkəzi küçələrini bağlayaraq nəqliyyatın hərəkətinə mane olub.

Beləliklə, Qarabağdakı separatçılar Azərbaycanın tərkibində qalmaq istəmədiklərini və "iqtisadi böhran"dan xilas olmaq üçün Hayastana birləşmək niyyətlərini bəyan edərək rəsmi İrəvanın Azərbaycanla sülh sazişinə mane olmağa cəhd göstərirlər. Hadisələr 1988-ci ildə Azərbaycana qarşı silahlı münaqişənin başlanması və 1998-ci ildə mümkün sülh razılaşmasını pozmaq üçün keçmiş hərbi xuntanın Hayastanda hakimiyyətə gətirilməsi ilə nəticələnən siyasi ssenariyə bənzəyir. İndi də Qarabağda terrorçu qruplaşmaların gərginlik yaratması fonunda növbəti hədəfin Hayastanda hakimiyyət dəyişikliyinə gedilməsidir.

Erməni ekspert Roman Baqdasaryan Xankəndidə keçirilən aksiya ilə bağlı mövqeyini teleqram kanalında şərh edərək yazıb ki, artıq 5 gündür etirazlar davam etsə də, nəticə sıfırdır, nəinki dünya birliyi, heç ermənilərin özləri belə buna əhəmiyyət vermirlər. Çünki dünya Rubeni, Araik və Qurgeni Rusiyanın qulu kimi qəbul edir. Ona görə də nəticə sıfırdır. O bildirib ki, Rusiya erməniləri aksiyaya dəstək verməkdən qəti şəkildə imtina ediblər. 1,5 milyon ermənidən bir nəfər belə Azərbaycan səfirliyi və Rusiya Xarici İşlər Nazirliyinin binası qarşısında piket keçirməyib. Rusiya Ümumerməni İttifaqı, Ezras diaspor rəhbərləri susurlar. Fransanın 500 min ermənisi və bütün Avropa ölkələrinin erməniləri "ölümcül sükut"a qərq olubar. ABŞ erməniləri bütün bunları dəstəkləməkdən birmənalı şəkildə imtina ediblər. Bütün Ermənistanda yalnız Hadrut sakinləri bir aksiya keçirərək Rusiya səfirliyinin və BMT-nin ofisi qarşısına gediblər. Rusiyada və Avropada 80 minə yaxın Qarabağ ermənisi yaşayır və onlar da Ruben, Qurgen, Araikin mitinqini dəstəkləməyiblər.

Baş nazir Nikol Paşinyan isə dünən keçirdiyi mətbuat konfransında Vaşinqton, Brüssel və Moskvada keçirilən görüşlərdə prioritetlərin dəyişib-dəyişməməsi ilə bağlı sualı cavablandırarkən deyib ki, görüşlərin harada keçirilməsindən asılı olmayaraq, Azərbaycanla Hayastan arasında danışıqların gündəliyi dəyişmir. Danışıqlar müxtəlif platformalarda - Moskvada, Vaşinqtonda və Brüsseldə aparılır: "Bu kontekstdə deyirəm ki, danışıqlarda uğur qazanmaq lazımdır. Gündəlikdə duran məsələlər heç bir halda dəyişmir, prinsipial məsələlər dəyişmir, müzakirənin məntiqi dəyişmir".

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xuntanın və ona bənzər digər araqızışdıranların etiraz aksiyaları keçirməsi erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin görüşü olub






*Əvvəli 1-ci səh.*

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda təsbit olunmuş öhdəliklərə zidd olaraq, Ermənistan tərəfindən Laçın yolundan hərbi məqsədlər, habelə Azərbaycanın təbii sərvətlərinin qanunsuz daşınması üçün sui-istifadə hallarına qarşı tədbirlərin Azərbaycanın suveren hüququ olduğu bildirilib. Bu məqsədlə eyni zamanda Azərbaycan tərəfindən Laçın dövlət sərhədindən buraxılış məntəqəsinin təsis edilməsinin zəruri tədbir olduğu diqqətə çatdırılıb. Nazir sərhəd-buraxılış məntəqəsinin yaradılmasından bəri erməni sakinlərin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlanan keçidi üçün şəraitin yaradılmasına baxmayaraq, Ermənistan tərəfindən iyunun 15-də keçid məntəqəsinə qarşı törədilmiş təxribatın erməni sakinlərin keçidinə maneçilik törətdiyini bildirib. Hazırda Azərbaycan tərəfindən erməni sakinlərin tibbi məqsədlər üçün keçidinin təmin olunduğu diqqətə çatdırılıb.



Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla bir sıra təkliflər irəli sürülməsinə baxmayaraq, erməni tərəfinin bütün təkliflərə qarşı çıxması onların məkrli niyyətlərini və humanitar vəziyyət barədə iddiaların siyasi şantaj olduğunu göstərdiyi qeyd olunub.

Azərbaycanın öz suveren ərazilərində yaşayan ermənilərin reinteqrasiyası tədbirlərinə müdaxilə cəhdlərinə son qoyulması, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün sözdə və əməldə Ermənistan tərəfindən qeyd-şərtsiz təsdiqlənməsinin, eləcə də öhdəliklərə zidd olaraq hələ də tam olaraq Azərbaycan ərazisində mövcud olan erməni silahlı qüvvələrinin ərazilərimizdən çıxarılmasının bölgədə sülhün təmin edilməsi üçün ən zəruri şərtlər olduğu nazir Ceyhun Bayramov tərəfindən vurğulanıb.

# Müdafiə Nazirliyinin rəhbər heyəti "IDEF-23" sərgisinin açılış mərasimində iştirak edib

İyulun 25-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti İstanbul şəhərində keçirilən "IDEF-23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisinin açılış mərasimində iştirak edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, nazirliyin rəhbər heyəti sərgidə "ASELSAN", "ROKETSAN", "DEARSAN"



və digər şirkətlərin stendlərində nümayiş etdirilən silah, texnika və hərbi təyinatlı vasitələrlə tanış olub. Səfər çərçivəsində general-polkovnik Z.Həsənov həmçinin Türkiyənin texnologiya naziri Mehmet Fatih Kacır ilə görüşüb. Görüşdə hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb və qarşılıqlı hədiyyələr təqdim edilib.

# Müdafiə naziri türkiyəli həmkarı ilə görüşüb

İstanbul şəhərində keçirilən "IDEF - 23" 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisi çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Türkiyənin milli müdafiə naziri cənab Yaşar Gülerin iştirakı ilə görüş keçirilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil, hərbi tibb və digər sahələrdə əməkdaşlığın cari vəziyyəti və gələcəkdə bu istiqamətdə görülən işlərin daha da inkişaf etdirilməsi barədə müzakirələr aparılıb.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

# Baş Prokurorluqda cari ilin birinci yarısında görülmüş işlərin yekunlarına dair kollegiya iclası keçirilib

İyulun 25-də Baş Prokurorluqda Mərkəzi aparatın, respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının rəhbər heyətinin, rayon (şəhər) və ərazi hərbi prokurorlarının iştirakı ilə videokonfrans rejimində 2023-cü ilin birinci yarısında prokurorluq orqanları tərəfindən cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyənləşdirilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.



Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Əvvəlcə Baş Prokurorluğun kollegiya üzvləri müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad ediblər.

İclasda Ümummilli Lider Heydər Əliyevin, Birinci Qarabağ və 44 günlük Vətən müharibəsində şəhid olmuş əsgər və zabitlərimizin ruhu birdəqiqəlik sükutla anılıb, yaralanan hərbçilərimizə şəfa arzulanıb.

Baş prokuror Kamran Əliyev iclasda çıxış edərək Ulu Öndər Heydər Əliyevin siyasi fəaliyyəti, dövlət və məhkəmə-hüquq sisteminin quruculuğu və inkişafındakı rolu, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində həyata keçirdiyi islahatlardan söz açıb. Çıxışda Prezident İlham Əliyevin rəhbərliyi ilə güclü dövlət, sosialyönümlü iqtisadiyyat və yüksək rifah cəmiyyəti konsepsiyasının inamla reallaşdırılması nəticəsində Azərbaycanın regional siyasi və iqtisadi gücə çevrildiyi qeyd edilib, xarici siyasətlə yanaşı, ölkə daxilində də mühüm uğurlar qazandığı, bütün sahələrdə dinamik inkişafın davam etdirildiyi bildirilib. Azad olunmuş əzəli torpaqlarımızda analoqu olmayan quruculuq işlərinin uğurla davam etdirildiyi, "Böyük qayıdış" proqramı çərçivəsində artıq 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulduğu diqqətə çatdırılıb.

Hesabat dövründə prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərdən danışan baş prokuror Kamran Əliyev bildirib ki, ilin birinci yarısında ölkə ərazisində 19 min 533 cinayət qeydə alınıb. Onların 88,3 faizinin açılması təmin edilib. Ümumilikdə ölkə üzrə cəmi 9946 cinayət işinin istintaqı tamamlanıb ki, bunlardan 674-ü prokurorluq orqanlarında istintaq edilib.

Bu müddətdə prokurorluq orqanları tərəfindən 452, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 8184 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilib. İbtidai istintaqı tamamlanmış cinayət işləri üzrə vurulmuş 151 milyon 424 min manat məbləğində maddi ziyanın 40,2 faizi istintaq tədbirləri ilə ödətdirilib. Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 43 milyon 136 min manat məbləğində maddi ziyan vurulduğu müəyyənləşdirilib. İstintaq tədbirləri ilə onun 17 milyon 407 min manat hissəsi ödətdirilib.

Xüsusi qeyd edilib ki, Prezidentin 2021-ci il 7 may tarixli Fərmanında əksini tapmış "Elektron prokurorluq" informasiya sistemi artıq prokurorluq orqanlarının tam istifadəsinə verilib. Hazırda sistemin təkmilləşdirilməsi və digər informasiya sistemlərinə inteqrasiya istiqamətində işlər davam etdirilir.

Bildirilib ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizəni hesabat dövründə də uğurla davam etdirib. Korrupsiya hüquqpozmasına yol vermiş 218 şəxs barəsində 144 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib, 3 milyon 996 min manat məbləğində ziyanın ödənilməsi təmin edilib, 3 milyon 578 min manat məbləğində əmlak üzərinə həbs qoyulub. Baş idarənin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərin 20-si üzrə cinayət işləri başlanıb. Digər müraciətlər üzrə qabaqlayıcı tədbirlərin görülməsi təmin edilib. Keçirilən əməliyyat tədbirləri nəticəsində 28 şəxs cinayət başında yaxalanıb, əldə edilmiş məlumatlar əsasında 85 cinayət işi başlanıb. Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 42 şəxs barəsində 24 cinayət işinin ibtidai istintaqı aparılmaqla baxılması üçün məhkəmələrə göndərilib. Bunlardan 10 şəxs barəsində 10 iş qəsdən adam öldürmə faktları ilə bağlı olubdur.

Kollegiya iclasında daxili işlər, dövlət təhlükəsizliyi orqanları və penitensiar xidmət ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 4 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edildiyi, hesabat dövründə onlardan 1-i üzrə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi xüsusi vurğulanıb.

Qeyd olunub ki, cari ilin birinci yarısında Respublika Hərbi Prokurorluğu Müdafiə Nazirliyi, Sərhəd Qoşunları və digər qurumlarla birlikdə zəruri tədbirlər görüb.

İclasda Naxçıvan Muxtar Respublikası Prokurorluğunda cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə uğurlu göstəricilərin əldə olunduğu, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarətin gücləndirildiyi, vətəndaşların müraciətlərinə baxılmasının diqqətdə saxlanıldığı bildirilib.

Bildirilib ki, cari ilin birinci yarısında cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 733 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Həmçinin xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb. Müxtəlif xətalar törətdiklərinə görə 25 nəfər prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib. Onlardan 16-na töhmət və ya şiddətli töhmət elan edilib, 7 nəfər vəzifədən azad edilib, 1 nəfərə irad tutulub, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilib.

Hesabat dövründə kadr işinin düzgün təşkili və onun müasir standartlar səviyyəsində daha da təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlərin yerinə yetirildiyi, vakant vəzifələrin gənc hüquqşünaslarla komplektləşdirilməsinin davam etdirildiyi diqqətə çatdırılıb.

Kollegiya iclasında xüsusi müsadirə, aktivlərin bərpası sahəsində görülmüş işlər vurğulanmaqla, bu sahədə beynəlxalq təcrübənin yaxından öyrənilməsi üçün zəruri tədbirlərin görüldüyü bildirilib. Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə ağır və xüsusilə ağır cinayətlərdə ittiham olunan 12 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Vurğulanıb ki, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılıb, müraciətlərə baxılması və vətəndaşların qəbulu sahəsində nöqsanların aradan qaldırılması, şəhid ailələri və müharibə iştirakçılarının müraciətlərinə xüsusi həssaslıqla yanaşılması, informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunması, əməkdaşların peşə hazırlığının yüksəldilməsi istiqamətində zəruri tədbirlər görülüb. Prokurorluq işçilərinin və digər hüquq-mühafizə orqanlarının əməkdaşlarının peşə hazırlığının artırılması üçün Elm-Tədris Mərkəzi tərəfindən təlimlər keçirilib, tədris-metodiki vəsaitlər hazırlanıb. Habelə Baş Prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilib və faydalı fikir mübadiləsi aparılıb.

Kollegiya iclasında hesabat dövründə işin səmərəliliyinə mənfi təsir göstərən hallar ətraflı təhlil olunub. İstintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla, onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanıb.

Sumqayıt şəhər, Laçın, Qazax rayon və Qubadlı hərbi prokurorları hesabat dövründə görülmüş işlərlə bağlı, Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi isə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanuna uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi barədə məruzələrlə çıxış ediblər. Məruzələr ətrafında fikir mübadiləsi aparılıb, qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanlarının bundan sonra da digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün zəruri tədbirlərin görülməsini təmin edəcəyinə əminliyini bildirib.

# *Ayman MAYZEK:* "Azərbaycanın multikultural cəmiyyət təcrübəsi dünya ölkələri üçün olduqca böyük önəm kəsb edir"

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə iyulun 25-də Almaniya Müsəlmanları Mərkəzi Şurasının sədri Ayman Mayzek ilə görüşüb.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Şeyxülislam Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyəsi və ölkəmizdə hökm sürən dinlərarası harmoniya, məzhəblərarası anlaşma mühiti barədə ətraflı danışıb. Azərbaycan dövlətinin 44 günlük Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi geniş bərpa-yenidənqurma işləri barədə məlumat verən QMİ sədri erməni vandalizminə məruz qalmış dini-mənəvi abidələrimizin böyük diqqət və qayğı ilə bərpa edildiyini qonağın diqqətinə çatdırıb.

Almaniyalı qonaq Azərbaycana ilk dəfə səfər etdiyini, lakin burada mövcud dini və etnik tolerantlıq barədə çox məlumatlı olduğunu, bu səfəri Azərbaycanın dini mühiti ilə yerində tanış olmaq məqsədilə gerçəkləşdirdiyini bildirib.

A.Paşazadə Azərbaycanın dini mərkəzinin Avropa dini icma və mərkəzləri, o cümlədən Avropa ölkələrindəki müsəlman icmaları ilə fəal əlaqələrə malik olduğunu, bütün səfərlərində və beynəlxalq tədbirlərdə onların nümayəndələri ilə görüşdüyünü qonağın diqqətinə çatdırıb. Avropa ölkələrində islamofobiya hallarının, o cümlədən bəzi dövlətlərdə Quranın yandırılması kimi aksiyaların təşkilinin sivilizasiyalararası dialoq prosesinə xələl gətirdiyini vurğulayan Şeyxülislam iştirakçısı olduğu bütün dini platformalarda dinlərin müqəddəs rəmzlərinə ehtiramlı münasibətin zəruriliyini, dindən siyasi məqsədlər üçün sui-istifadənin yolverilməz olduğunu vurğuladığını bildirib. Bu kontekstdə QMİ sədri erməni kilsəsinin Azərbaycana qarşı qarayaxma kampaniyaları, öz revanşist məqsədləri üçün dini müstəvilərdən, ələlxüsus Ümumdünya Kilsələr Şurasının tribunasından sui-istifadə hallarından danışıb və QMİ-nin buna qarşı etiraz bəyanatını xatırladıb.

Almaniyalı qonaq öz növbəsində Avropada Quranın yandırılması hallarına toxunaraq, bundan müsəlmanların deyil, Avropa cəmiyyətlərinin özlərinin narahat olmalı olduqlarını vurğulayıb. Ayman Mayzek bildirib ki, Azərbaycanın malik olduğu multikultural, tolerant cəmiyyət təcrübəsi nəinki müsəlman, bütün digər dünya ölkələri üçün olduqca böyük önəm kəsb edir.

Daha sonra almaniyalı qonaq Təzəpir məscidini ziyarət edib və orada namaz qılıb.

# Azərbaycan Mətbuat Şurasının bəyanatı

Azərbaycan Mətbuat Şurası bəyanat yayıb. AZƏRTAC-a daxil olan bəyanatda deyilir:

"İyulun 21-23-də keçirilmiş "4-cü Sənaye İnqilabı dövründə yeni media" mövzusunda I Şuşa Qlobal Media Forumu auditoriya genişliyi, mövzu zənginliyi ilə Azərbaycanda, Cənubi Qafqaz regionunda və bütövlükdə dünyada mühüm əhəmiyyət daşıyan hadisəyə çevrildi. İki gün ərzində nüfuzlu media, jurnalist təşkilatları rəhbərləri, ekspertlər media və informasiya-kommunikasiya sahəsinin aktual məsələlərini ətraflı müzakirə etdilər.

Təəssüf ki, öz ənənəsinə sadiq qalan Ermənistanın Azərbaycana qarşı apardığı qaralama kampaniyası hələ tədbirin gedişində özünü göstərməyə başladı. Ölkənin 11 jurnalist təşkilatı forumun iştirakçılarına müraciət ünvanlayaraq və yersiz həmkar sentimentallığı nümayiş etdirərək, əcnəbi media mənsublarını qınadılar, onları Şuşanı tərk etməyə çağırdılar. Müraciətdə həmçinin Qarabağın erməni əhalisinin, guya, "blokadada" olduğuna dair iddianın irəli sürülməsi və xarici jurnalistlərdən mövzunu gündəmə gətirmək istənilməsi bu mühüm hadisəni siyasiləşdirmək və bundan mümkün dividend əldə etmək cəhdindən başqa bir şey deyildi.

Daha bir məqam erməni tərəfinin eyni motivli müraciəti beynəlxalq təşkilatlara da ünvanlamasıdır. Həmin müraciətdə foruma qarşı bəyanatın verilməsi, tədbirə qatılmış xarici jurnalistlərin fəaliyyətinin pislənilməsi kimi qəbuledilməz fikirlər irəli sürüldü. Bu azmış kimi, həmin jurnalistlərin elektron poçt ünvanlarına hədə-qorxu dolu məktublar göndərildi, onlar şantaja və sözün əsl mənasında, terrora məruz qaldılar. Bəzi iştirakçılar hətta öz sosial şəbəkə hesablarını müvəqqəti qapatmaq məcburiyyətində qaldılar.

Şuşa forumuna qatılanların adından yalançı açıqlamaların yayılması, guya, onların həmin açıqlamalarında Qarabağın "blokadasının" aradan qaldırılmasına yönələn fikirlər səsləndirdikləri iddiası isə heç bir əndazəyə sığmır.

Azərbaycan Mətbuat Şurası
Azerbaijan Press Council

Ermənistanda media fəaliyyəti ilə məşğul olduğunu bildirən şəxslərin faktiki olaraq Cənubi Qafqaz regionunda sülh gündəliyinə qarşı çıxması, təxribatçı əməlləri jurnalistikadan sui-istifadədir, peşə prinsiplərinə etinasız yanaşmadır. Azərbaycan Mətbuat Şurası bundan narahatdır.

Şura hesab edir ki, beynəlxalq ictimai rəyi çaşdırmağa yönəlmiş, xarici media mənsublarını təhdid edən bu kimi hallar tam yolverilməzdir və məsələyə sərt reaksiyanın göstərilməsi mütləqdir. Qurum beynəlxalq ictimaiyyəti, habelə dünyanın aparıcı jurnalist təşkilatlarını mövcud istiqamətdə həmrəylik nümayişinə, müvafiq tədbirlər görməyə çağırır.

Mətbuat Şurası eyni zamanda Ermənistan mediasının çirkin siyasi texnologiyalardan istifadə etməsindən dərin təəssüf hissi keçirir. Şura hesab edir ki, həm Azərbaycanın, həm də Ermənistanın media orqanları ölkələr arasındakı münasibətlərin pozulmasına deyil, əksinə, normallaşmasına xidmət etməlidirlər.

Ermənistanın, ermənipərəst dairələrin bu sayaq spekulyativ addımları heç bir nəticə verməyəcək. Mətbuat Şurası əmindir ki, I Şuşa Qlobal Media Forumu davamlı xarakter almaqla, dünyada media sahəsindəki problemlərin dərin müzakirə olunacağı mötəbər platformaya çevrilməkdədir. Yaxşı olardı ki, Ermənistan jurnalistləri avantürist meyillərin əsirinə çevrilməsinlər, gələcəkdə bu platformada təmsil olunsunlar və jurnalistika dəyərlərinin qorunmasına töhfə versinlər".

# REGİONLAR

## Daşaltının bərpası 220 ailəyə illərin həsrətini unutduracaq

Şuşa qalasının cənub ətəyindəki dərədə, Cıdır düzündən aşağıya enən sıldırımın yamacında yerləşən Daşaltı kəndi Şuşaya gedən yolun üzərindədir. 1991-ci ildə işğal olunan kənd 1992-ci il yanvarın 25-də başlayıb bir gün sonra faciə ilə bitən "Daşaltı əməliyyatı"nın keçirildiyi yerdir. İllər öncə Daşaltının ələ keçirilməsi Şuşanın işğalına şərait yaratmışdı. Amma 2020-ci il noyabrın 9-da rəşadətli Azərbaycan Ordusu Daşaltını düşmənlərdən xilas etdi və bununla da Şuşaya yol açdı.



İllərin o tayında qalan ağrılı günlərdən pay alan Daşaltı həmin əzablardan azad oldu, mənfur erməni tapdağından təmizləndi. Azərbaycan hərb tarixinin ən parlaq səhifələrindən olan həmin hadisə ilə qalib ordumuz 29 il əvvəlki ləkəni təmizlədi, şəhidlərimizin qanı yerdə qalmadı.

Prezident İlham Əliyev 2021-ci il martın 16-da Daşaltı kəndində olarkən "Müzəffər ordumuz məhz bu kənddən qalxaraq sıldırım qayaları qət edəndən sonra Şuşaya daxil olub. İrəlidə böyük Kirs dağıdır. Azərbaycanın gözəl təbiəti gözümüzün önündədir. Hansı tərəfə baxsan gözəllik, yaşıllıqdır. Bura Azərbaycan torpağıdır, Qarabağ torpağıdır. Bundan sonra Azərbaycan xalqı burada əbədi yaşayacaq" - deyə fikirlərini söyləyəndən sonra kəndin bərpası ilə bağlı tapşırıqlarını vermişdi. Həmin gün Prezident və birinci xanım Mehriban Əliyeva Daşaltıda məscidin təməlini də qoymuşdular.

Bir il sonra aprelin 21-də Şuşa rayonunun Daşaltı kəndinə səfər edən Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun və yolun üzərindəki tunellərin tikintisi ilə tanış olmuş və bərpa-quruculuq işləri ilə bağlı yeni tapşırıqlarını vermişdir. Dövlət başçısı Zəngəzurun bərpa-quruculuq işlərini şəxsi nəzarətində saxlayaraq tez-tez o yerlərə səfər edib, verdiyi tapşırıqların yerinə yetirildiyini öz gözləri ilə görüb, əlavə tövsiyə və göstərişlərini verib, yeni-yeni infrastruktur layihələrinin təməlini qoyub.

Prezident bu günlərdə Daşaltıya məhz bu məqsədlə üçüncü dəfə səfər edib. Kəndin yenidən qurulması ilə bağlı görülən və yaxın gələcəkdə aparılacaq işlərlə tanış olduqdan sonra yeni yaşayış kompleksinin və turizm obyektlərinin təməlini qoyub. Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov dövlət başçısına qarşıdakı vaxtda görüləcək işlərlə bağlı məlumat verib.

Heç kəsə sirr deyil ki, Şuşa üçün xüsusi əhəmiyyət daşıyan Daşaltı kəndinin tezliklə bərpa olunması, əhalinin yurd-yuvalarına dönüb ömürlərinin sonunacan rahat yaşaması və burada həyatın yenidən qaynaması qarşıya qoyulan əsas məqsəddir. Kəndin gələcək inkişafı bugünkü bərpa-quruculuq işlərinə bağlıdır. Ona görə də kənd sakinləri üçün rahat və sağlam mühit yaratmaq, yeni-yeni iş yerləri açmaq, istirahətlərini təmin etmək əsas prioritetlərdəndir. Aydın Kərimovun söylədiyinə görə, yenidənqurma üzrə təqdim olunan konsepsiya ərazinin təbii landşaftını qorumaqla Daşaltı kəndinin müasir tələblərə cavab verən yenilənəcək simasını nümayiş etdirir. Kənddə ictimai və yaşayış mərkəzlərinin, mədəniyyət və təhsil ocaqlarının qurulması, sosial və ictimai obyektlərin inşası, turizm sahələrinin yaradılması, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi, ərazinin yaşıllaşdırılması, kəndin ekoloji təmiz enerji ilə qidalandırılması üçün infrastrukturun təmin olunması nəzərdə tutulur.

65 hektara yaxın ərazidə görüləcək bu işlər Daşaltıya yeni nəfəs verəcək, yeni ruh gətirəcək. İşğal illərində yerləyeksan olunmuş, dağıdılmış, viran qoyulmuş Daşaltının simasını dəyişəcək. Kəndə ümumi sayı 1100 nəfər olacaq 220 ailənin köçürülməsi planlaşdırılır. Həmin insanların yaşayışı üçün ümumilikdə 228 ev - ikimərtəbəli çoxmənzilli 9 bina, ikimərtəbəli bloklaşdırılmış ("townhouse" tipli) 66 ev və 153 ikimərtəbəli fərdi ev tikiləcək. Prezidentə bildirildi ki, bir-birindən ortaq divarla ayrılan üçotaqlı və dördotaqlı yaşayış binaları optimal quruluşuna görə az sahədə bir neçə ailənin yaşamasına imkan yaradır və eyni zamanda onların hər birini şəxsi həyət və terras ilə təmin edir. Həmçinin azmərtəbəli çoxmənzilli tikililər ərazidə yüksək sıxlıq yaratmamaqla əhalini kiçik sahədə yerləşdirmək imkanı verdiyinə görə kəndin planlaşdırılmasında ən optimal həll hesab olunur. Binaların ətrafında sakinlər üçün ümumi istirahət sahələri, yaşıllıqlar, avtomobil dayanacaqları nəzərdə tutulub. Beləliklə də, 220 ailə illərin ağrı-acısını, taleyin yaralarını doğma torpaqda, əziz yurd yerində sağaldacaq, keçmişin ağrı-acısına məlhəm çəkəcək.

Kənddə təməli Prezident tərəfindən qoyulmuş məscidin tikintisinə başlanılıb. Bura Daşaltı kəndinin sakinlərinin ibadətlərinin yerinə yetiriləcəyi müqəddəs bir məbəd, səcdəgah olacaq. Kəndin ən uca yerində inşa ediləcək Bayraq meydanında dalğalanacaq üçrəngli bayraq Azərbaycan xalqının qürurundan, bayraq sevgisindən xəbər verəcək. Onu da deyək ki, Daşaltı kəndində özəl sektor üçün investisiya zonasında nəzərdə tutulan evlərin və turizm obyektlərinin tikintisi "PMD Group" MMC tərəfindən yerinə yetirilir.

Daşaltı kəndində informasiya mərkəzi, qonaq evi, xalq sənətkarlığı emalatxanaları, qida məhsullarının satış köşkləri, ictimai-iaşə və ticarət obyektləri, sərgi salonu, uşaq bağçası, inzibati bina, tibb məntəqəsi, poçt şöbəsi, klub-icma mərkəzi, aktiv turizm və istirahət zonalarının yaradılması planlaşdırılır. İki hektardan çox ərazidə kənd üslubunda hotel və istirahət mərkəzi tikiləcək. Hotel kompleksi ikimərtəbəli 10 binadan ibarət olacaq. Ümumilikdə 48 nömrədən ibarət olacaq kompleksdə restoran, əyləncə və idman-sağlamlıq mərkəzləri, uşaqlar üçün oyun meydançası, istirahət parkı yaradılacaq. Bütün bu infrastrukturlar kənddə məskunlaşacaq yerli əhalinin məşğulluğunu təmin edəcək.

Bu kənddə üç onillik idi ki, şəhid ruhları inləyirdi. İndi o ruhlar rahatdır. 44 günlük savaşda Zəfər qazanan qəhrəman Azərbaycan əsgəri təkcə torpağı işğaldan qurtararaq Daşaltını təmizləməyib, həm də xalqımızın illərlə aldığı mənəvi zərbələrin yerini doldurub, sızıldayan yarasını bağlayaraq onu ağrılardan xilas edib, tarixi ədalətin təcəllа etməsinə şərait yaradıb. Daşaltının 29 il daş altında əzilən qürurunu özünə qaytarıb. Bir sözlə, düşməndən tutarlı qisas alaraq insanların yeni həyata başlamasına yol açıb.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## Emal məntəqəsinə yaş tütün təhvili davam edir

Yaponiyanın "Tet İnternational Development" şirkətinin törəmə müəssisəsi olan "Zaqatala AGRO İndustry" MMC tərəfindən bu il Balakən, Zaqatala və Qax rayonlarında 388,9 hektar sahədə "Virciniya botaniki" növlü tütün əkilib.

Hazırda şirkətin Zaqatala rayonunda fəaliyyət göstərən tütünqurutma məntəqəsində fermerlərdən yaş tütünün qəbulu davam edir. İndiyədək məntəqəyə istehsalçılardan 562 tondan çox yaşıl tütün kütləsi daxil olub. Bu barədə "Zaqatala AGRO İndustry" MMC-dən məlumat verilib.

Bildirilib ki, tütün istehsalı ilə əlaqədar bu il həmin rayonlarda 44 fermerlə müqavilə bağlanılıb. Bağlanılan müqavilələr üzrə tütün əkiləcək sahələr 238 hektar təşkil edir. Eyni zamanda cari mövsümdə fermerlər fərdi müqavilələr üzrə şirkət tərəfindən verilmiş toxumla təsərrüfatlarında 150,9 hektar sahədə tütün əkiblər. Fermerlərdən Təranə Quliyeva indiyədək qəbul məntəqəsinə 79,8 ton, Həsən Abdullayev 37,5 ton, Elxan Bazayev 36,3 ton, Mahmud Muradov 34,1 ton, Rahib Əliyev 33,2 ton yaş tütün təhvil veriblər. Təhvil verilən yaş tütünün 136,5 tonu birinci, 134,8 tonu ikinci, qalanı isə üçüncü növdür.

## Şəkidə sənaye məhsulları istehsalında 18,6 faiz artım qeydə alınıb



Bu ilin yanvar-iyun aylarında Şəki rayonunda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən 37 milyon 519,3 min manatlıq məhsul istehsal edilib və xidmətlər göstərilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 873 min manat və ya 18,6 faiz çoxdur. Bu barədə Şəki Şəhər Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, Şəki rayonunun sənayesi əsasən emal, toxuculuq, elektrik enerjisinin istehsalı və bölüşdürülməsi, qaz və buxar istehsalı, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrini əhatə edir.

Altı ayda rayonda toxuculuq sənayesi sahəsində faktiki qiymətlərlə 2 milyon 209,7 min manatlıq məhsul istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1 milyon 157,7 min manat və ya 2,1 dəfə çoxdur.

Hazırda rayonda biri iri, 7-si orta, 4-ü kiçik və 7-si mikro olmaqla, 19 sənaye müəssisəsi fəaliyyət göstərir. Sənaye sahəsində 1233 nəfər işçi çalışır. Hesabat dövründə bir işçiyə düşən orta aylıq əməkhaqqı 607,5 manat olub.

## Tərtərdə "Vətən bağı"ndakı ağaclara şəhidlərimiz haqda məlumatların olduğu QR kodlar yerləşdirilib



2021-ci ilin sentyabrında Tərtər rayon Şıxarx qəsəbəsində təməli qoyulan "Vətən bağı" Şəhidlər parkında bir ilkə imza atılıb. Belə ki, hər bir ağaca bir şəhidimizin şəkli, adı, ata adı və soyadı olan məlumat lövhələrinə həm də QR kodlar yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, QR kod oxudulan zaman həmin şəhid haqqında müfəssəl məlumat əldə etmək mümkün olacaq. Bu bağ həm də Azərbaycanda ilk QR kodlu bağ kimi tarixə düşəcək.

Qeyd edək ki, "Vətən bağı" Şəhidlər parkı Tərtər Rayon İcra Hakimiyyətinin dəstəyi və "Vətən bağı" Sosial Təşəbbüslər İctimai Birliyinin təşkilatçılığı ilə salınıb. Bağda 4000-dək meyvə ağacı əkilib, damcı suvarma sistemi qurulub.

3600 şəhid haqqında QR məlumat lövhələrindən artıq 2200-ü yerləşdirilib. 1988-ci ildən bu günədək şəhid olan bütün Tərtər şəhidləri, 44 günlük Vətən müharibəsində, Aprel və Tovuz döyüşlərində şəhadətə ucalan, Azərbaycanın 2 xanım Milli Qəhrəmanı (Salatın və Gültəkin Əsgərova), həmçinin Türkiyənin azadlığı və müstəqilliyi uğrunda canlarını fəda etmiş 10 türk şəhid xanımın da məlumat tabloları bağda yer alıb.

## Şirvanda bədii gimnastika üzrə tədbir keçirilib

Azərbaycan Gimnastika Federasiyası tərəfindən Şirvan Olimpiya İdman Kompleksində bədii gimnastika üzrə Azərbaycan yığma komandasının üzvlərinin nümunəvi çıxışlarından ibarət idman tədbiri keçirilib.

Tədbirdə Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini Mariana Vasileva, Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin rəisi vəzifəsini icra edən Aydın Yusifov, idmançılar, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Gimnastlar tərəfindən həm fərdi, həm də qrup şəklində ip, top, lent, halqa və gürzlərlə hərəkətlər icra olunub. Gimnastların çıxışları izləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

*S.CAVADOV, "Azərbaycan"*

## Su varsa, pambıq da olacaq, yoxsa...

### Fermerlərin gileyi yalnız su qıtlığındandır

"Su həyatdır, bolluqdur", - deyiblər. Cəmiyyət və təbiət üçün var olmaq mahiyyəti kəsb edən bu nemət qlobal istiləşmə və kataklizmlərlə əlaqədar get-gedə azalmaqdadır. Hər il yaz aylarında bəndə-bərəyə baxmayaraq, sahilboyu evləri, bağ-bağatları, həyətləri, əkin sahələrini çənginə alan Dəli Kür bu gün miskin haldadır.

Kəndlilər böyük zəhmət, xərc bahasına becərdikləri taxıl, pambıq, yonca və digər mövsümi kənd təsərrüfatı bitkilərini suvara bilmirlər. Hazırda pambıq əkinlərinin becərilməsinin qızğın dövrüdür. Pambıqçılıqda isə əkin suyunun vaxtında və normada verilməsi məhsuldarlığa təsir edən mühüm şərtdir. Ümumiyyətlə, pambıq bitkisini susuz təsəvvür etmək qeyri-mümkündür. Bu haqda belə bir məşhur deyim də var: "Pambığın ayağı suda, başı günəşdə olmalıdır". Bəli, hazırda Muğan bölgəsində su qıtlığı yaşanır. Bu günlərdə Salyan, Neftçala, Biləsuvar rayonlarının fermerləri ilə görüşüb söhbət edərkən su çatışmazlığı ilə bağlı onların giley-güzarını eşitdik.

Neftçala rayonunun Qaçaqkənd kənd sakini fermer Ağadadaş Məmməfov dedi:

- Uzun müddətdir ki, təsərrüfat işləri ilə məşğulam. Kənddə böyüyüb boya-başa çatdığım üçün hələ yeniyetməlik çağlarımdan yay tətillərində pambığın becərilməsində iştirak etmişəm. Məktəbdə oxuduğumuz zaman kəndimizdəki "Kommunizm" kolxozunda pambıq sahələrini alaq otlardan təmizləyərdik. Yığım dövründə də öz köməyimizi əsirgəməzdik. Qazandığımız pulla özümüzə pal-paltar, dərs ləvazimatları alardıq, valideynlərimizə maddi baxımdan dəstək olardıq. Məktəb illərində ürəyimdə belə bir arzu yarandı ki, mən də gələcəkdə kənd təsərrüfatı işçisi olum. Atalar "Niyyətin hara, mənzilin də ora", - deyiblər. Orta məktəbi bitirib sənədlərimi Gəncə Kənd Təsərrüfatı Akademiyasına verdim. İmtahanlardan müvəffəq qiymətlər əldə edərək tələbə adını qazandım. Beş il bu təhsil ocağında ali təhsil aldım. Oranı bitirib kəndimizdəki təsərrüfatda əmək fəaliyyətinə başladım. 1991-ci ildə sovet hakimiyyətinin süquta uğraması nəticəsində kolxoz və sovxozlar dağıldı. 1996-cı ildə torpaq islahatı aparıldı. Kəndin hər bir sakini torpaq üzərində mülkiyyət hüququna yiyələndi. Mən də o vaxtdan ailə üzvlərimizin payına düşən torpağı əkib-becərməyə başladım. Əvvəllər texnika, mineral gübrələr sarıdan müəyyən çətinliklərlə qarşılaşırdım. Ölkəmizin iqtisadi gücü artdıqca biz fermerlərə də diqqət və qayğı artdı. Torpağı əkib-becərmək üçün kəndliyə subsidiya, güzəştli qaydada gübrələr və digər vasitələr verilir. "Aqroservis"lər, hər rayonda Dövlət Aqrar İnkişaf mərkəzləri və s. yarandı. Bunların hesabına kənd təsərrüfatı məhsulları da ilbəil artırıldı. Məhsulu bol olan fermerin də alnı açıq, başı uca olur. O, öz ailəsini geninə-boluna dolandırmaqla yanaşı, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında da yaxından iştirak edir. Bələlərindən biri də mənəm. Şükürlər olsun, uşaqlarımı yerbəyer etmişəm, evim-eşiyim, mal-qaram. Kəndli fermer üçün bunlardan daha önəmli nə ola bilər? Amma bir məsələni də qeyd etməyi özümə borc bilirəm. Son 2-3 ildən bəri suvarma suyu sarıdan çox korluq çəkirik. Sahələri vaxtında suvara bilmədiyimizdən məhsuldarlıq aşağı düşüb. Bu il 5,6 hektarda pambıq əkmişəm. Çalışmışam ki, bütün aqroexniki tədbirləri vaxtında görüm. Müqavilə bağladığım "MKT-İK" MMC-nin Neftçala filialının rəhbərliyi, mütəxəssislər texnika, gübrə, pul vəsaiti ilə bizi yüksək səviyyədə təmin edirlər. İndiyə kimi dörd dəfə kompleks becərmə aparmışam. Hər hektara



400 kiloqram karbamid gübrəsi vermişəm. Sahəni alaq otlarından təmizləmişəm ki, pambıq kolları yaxşı inkişaf etsin. Di gəl ki su sarıdan çətinliyimiz böyükdür. Pambığı vaxtında suvara bilmədiyimizdən kollar gülü, darağı, hətta kiçik qozaları buraxır. Bu da nəticədə məhsuldarlığa zərbədir. Bu zərbənin də sədəməsi bizə dəyir. Su ilə məşğul olan idarələr də çıxılmaz vəziyyətdədir. Deyirlər, özünüz görürsünüz, Kür çayında su azalıb. Belə olan halda sizə necə su verə bilərik? Ancaq biz eşitmişik ki, Mingəçevirdən su buraxıblar. Soruşuruq ki, su nə vaxt gəlib bizə də çatacaq? Cavab alırıq ki, onu dəqiqi demək mümkün deyil. Pambıq isə yanıb gedir. Pambıq sahələri qayğı tələb edir. Nəzərini çəksən, lazımi diqqət göstərməsən, ondan məhsul gözləməyə dəyməz.

Biləsuvar rayonundan Şakir Soltanov, Salyandan Ələsgər Eyvazov və onlarla digər fermerlər də su qıtlığı ucbatından yaranan çətinliklərdən danışdılar.

*Seyran CAVADOV, "Azərbaycan"*

◆ İdman

Xəbər verildiyi kimi, Sloveniyanın Maribor şəhərində Avropa Yeniyetmələrinin XVII Olimpiya Festivalının açılış mərasimi keçirilib. Mərasimdə Sloveniya Prezidenti Nataşa Pirts Musar, Avropa Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos və digər olimpiya komitələrərinin rəhbər şəxsləri iştirak ediblər. Açılış mərasimində Sloveniyanın Dövlət Himni səsləndirilib və bayrağı qaldırılıb. 5 mindən artıq azarkeşin arenadan birbaşa izlədiyi açılış mərasimində oyunların məşəlini sloveniyalı atlet və ölkə Prezidenti alovlandırıblar. Sonra Avropa Olimpiya komitələrinin bayraqları qaldırılıb. Könüllülər, idmançılar, hakimlər və məşqçilər adından and içilib.

# Yeniyetmələrin Olimpiya Festivalı







Avropa Olimpiya Komitəsinin prezidenti Spiros Kapralos açılış mərasimində çıxış edib. O bildirib ki, Avropa Yeniyetmələrinin Olimpiya Festivalı idmanın gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Məhz bu yarışlarda fərqlənən idmançılar sonradan böyük idman yarışlarında, xüsusilə Olimpiya oyunlarında öz ölkələrini təmsil edirlər.

Sonra Sloveniya Prezidenti Nataşa Pirts Musar Avropa Yeniyetmələrinin XVII Olimpiya Festivalını açıq elan edərək deyib: "Qoy bu Olimpiya Festivalı gerçəkləşən arzuların, dostluğun və qarşılıqlı hörmətin bayramı olsun".

Mərasimdə idmançıların paradı da olub. Azərbaycan millisi paraddan keçib. Bayrağımızı tennisçi Mədinə Babayeva və cüdoçu Ramazan Əhmədov daşıyıblar.

Qeyd edək ki, festivalda 48 ölkə 11 idman növü üzrə 3600-a yaxın 14-18 yaşlı yeniyetmə idmançılarla iştirak edir. Azərbaycan komandası festivalda 6 idman növü - cüdo, atletika, gimnastika, velosiped, tennis və üzgüçülük üzrə 36 idmançı ilə təmsil olunur.

Xatırladaq ki, Maribora yola düşməmişdən əvvəl Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında Avropa Yeniyetmələrinin XVII Yay Olimpiya Festivalında iştirak edəcək idmançılarla görüş olub.

Tədbirdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, Azərbaycan komandasının missiya rəhbəri Vaqif Əliyev, festivala yollanacaq idmançılar və məşqçilər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Çingiz Hüseynzadə yarışın əhəmiyyəti barədə danışaraq idmançılara uğurlar arzulayıb.

MOK-un İdman idarəsinin baş məsləhətçisi, festivalın missiya rəhbəri Vaqif Əliyev isə Sloveniyanın Maribor şəhərində keçiriləcək yarış haqda tədbir iştirakçılarını məlumatlandırıb.

Daha sonra MOK-un Beynəlxalq proqramlar idarəsinin əməkdaşı, "Olimpiya mədəniyyəti və təhsil proqramı"nın (OCEP) rəhbəri Ceyhun Rəhmanov çıxış edərək festival zamanı OCEP layihəsi çərçivəsində məktəblilərin iştirakı barədə danışıb. Qeyd olunub ki, OCEP layihəsi çərçivəsində iştirakçılar üçün qurulacaq pavilyonda ölkəmizi Zaur Məmmədov adına 171 nömrəli tam orta məktəbin şagirdləri təmsil edəcəklər.

AMADA-nın təhsil proqramları üzrə meneceri Qüdrət Səfərov isə çıxışında yeniyetmə idmançılara və komandanın məşqçilərinə antidopinq istiqamətində mövcud qaydalardan, həmçinin onların hüquq və vəzifələrindən bəhs edib.

Dünən Mariborda cüdoçular çıxışlarına başlayıblar. İlk yarış günündə üç azərbaycanlı idmançı tatami üzərinə çıxıb.

Nihad Məmişov (50 kq) mübarizəyə 1/4 finaldan başlayıb və burada Hayk Darbinyanı (Ermənistan) məğlub edərək adını yarımfinala yazdırıb.

Ayxan Mirzəzadə (55 kq) Samir Poblotski (İsveç) və Luka Riçardsonu (Hollandiya) məğlub edərək yarımfinala yüksəlib.

Məryəm Bayramzadə (44 kq) Böyük Britaniyadan olan Eva Yuinqi məğlub etsə də, 1/4 finalda Lena Antuinə (Belçika) məğlub olub. O, bürünc medal uğrunda mübarizə aparacaq.

Qeyd edək ki, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə və baş katibi Azər Əliyev atletlərimizin çıxışlarını izləyiblər.

MARIBOR EUROPEAN YOUTH OLYMPIC FESTIVAL 2023

Xatırladaq ki, 1991-ci ildən keçirilən Avropa Yeniyetmələrinin Olimpiya Festivalında Azərbaycan komandası 1995-ci ildən iştirak edir. Bu, sayca 17-ci idman tədbiridir ki, komandamız da bunlardan 13-də yarışıb. Yeniyetmə idmançılarımız bu tədbirlərin hər birindən Vətənə medallarla qayıtmağı bacarıblar. Ümumilikdə 78 (29 qızıl, 22 gümüş, 27 bürünc) medal qazanılıb. Bu yarışlarda uğurlar əsasən cüdo, güləş, atletika və idman gimnastikası növlərində əldə olunub. Qazanılan medallardan 54-ü (17 qızıl, 15 gümüş, 22 bürünc) cüdoçularımızın, 16-sı (8 qızıl, 5 gümüş, 3 bürünc) güləşçilərimizin, 7-si (4 qızıl, 1 gümüş, 2 bürünc) atletlərimizin, 1 gümüş medal isə idman gimnastlarımızın payına düşüb.

Milli Olimpiya Komitəsinin (MOK) baş katibi Azər Əliyev Mariborda keçirilən XVII Avropa Gənclər Olimpiya Festivalı zamanı OCEP məktəbliləri ilə görüşüb. Görüşdə Avropa Olimpiya Komitəsinin nümayəndəsi Canluka de Angelis, MOK-un İdman idarəsinin rəhbəri Həsənağa Rzayev, Maribor-2023 Azərbaycan nümayəndə heyətinin missiya rəhbəri Vaqif Əliyev, "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı"nın rəhbəri Ceyhun Rəhmanov, MOK-un Xarici Əlaqələr idarəsinin məsləhətçisi Ruslan Məmmədov, Azərbaycan Elm və Təhsil Nazirliyinin (ETN) sektor müdiri Hilal Salmanov və OCEP məktəbliləri iştirak ediblər.

Tədbirdə MOK-un Beynəlxalq proqramlar idarəsinin əməkdaşı, "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı"nın rəhbəri Ceyhun Rəhmanov qarşıdakı günlərdə OCEP proqramının fəaliyyəti və heyətdə yer alan şəxslər barədə ətraflı məlumat verib.

MOK-un baş katibi Azər Əliyev OCEP-in fəaliyyəti barədə danışaraq, bu layihənin EYOF-da artıq üçüncü dəfə təşkil olunacağını bildirib. Məktəblilərlə ümumi söhbət edən Azər Əliyev onların səfərləri və qarşıdakı günlərə hazırlıqla bağlı məlumat aldıqdan sonra məktəblilərə uğurlar arzulayıb. O, sosial media üzərindən proqramı yaxından izləyəcəyini bildirib.

Azər Əliyev həmçinin gələcəkdə OCEP-in EYOF-un bir hissəsi olaraq davam edəcəyinə ümid etdiyini də vurğulayıb. Növbəti qış Olimpiya Festivalının Gürcüstanda təşkil olunacağını diqqətə çatdıran MOK-un baş katibi ilk dəfə olaraq OCEP layihəsinin bu yarışda da həyata keçməsinin yeni hədəflər sırasında olduğunu deyib.

Azər Əliyev həmçinin OCEP-in məktəblilər üçün əhəmiyyətini və Olimpiya dəyərlərinin təbliğatı üçün çox uğurlu layihə olduğunu və bu işdə dəstək verdiyinə görə Avropa Olimpiya Komitəsinə öz təşəkkürünü bildirib.

Daha sonra Avropa Olimpiya Komitəsinin nümayəndəsi Canluka de Angelis proqramın əhəmiyyətindən danışaraq, ilk gündən etibarən bu proqramı həm şəxsən, həm də Avropa Olimpiya Komitəsi olaraq dəstəklədiklərini deyib. Gələcəkdə də EYOF-un tərkib hissəsi olaraq davam etməsini hərtərəfli dəstəkləyəcəklərini qeyd edib.

Sonra Azərbaycan Elm və Təhsil Nazirliyinin sektor müdiri Hilal Salmanov çıxış edərək nazirliyin proqramı tam dəstəklədiyini bildirib, Milli Olimpiya Komitəsinin rəhbərliyinə öz minnətdarlığını çatdırıb. O, belə layihələrin məktəblilərin inkişafı üçün əhəmiyyətli olduğunu vurğulayıb.

OCEP məktəbliləri Ümid Yusifli, Qumral Yusifli, Xədicə Seyidova və Nərminə Xələfova öz növbələrində Maribor-2023 çərçivəsində Sloveniyaya gəldiklərinə görə çox sevindiklərini və proqram üzrə ölkəmizi layiqincə təmsil edəcəklərini bildiriblər.

Avropa Yeniyetmələrinin XVII Yay Olimpiya Festivalı iyulun 29-dək davam edəcək.

**P.S.** Maribordan aldığımız məlumata görə, cüdoçularımız Nihad Məmişov və Ayxan Mirzəzadə bürünc medal qazanıblar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə*
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |




**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# DSX "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin Ermənistan tərəfində planlaşdırılan təxribatla əlaqədar xəbərdarlıq edib

Əldə edilmiş məlumata əsasən, "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qarşı tərəfdən olan girişində iyulun 26-da Ermənistan tərəfindən müxtəlif nəqliyyat vasitələrinin toplanmasını təşkil etməklə nümayişkaranə şəkildə növbəti təxribat əməli planlaşdırılır.

Bu barədə AZƏRTAC-a Dövlət Sərhəd Xidmətindən məlumat verilib.

"Ermənistan tərəfini bu kimi təxribat məqsədi daşıyan və vəziyyətin gərginləşməsinə xidmət edən əməllərdən çəkinməyə çağırırıq. Bir daha bildiririk ki, mümkün təxribat əməllərinə görə bütün məsuliyyət tam şəkildə Ermənistan tərəfinin üzərinə düşəcəkdir", - deyə məlumatda bildirilib.


*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün mebel inventarlarının satın alınması məqsədilə
## *tender elan edir*

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz ) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyesterindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib, təsdiqedici sənəd əlavə edilməlidir);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.07.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Təsdiqedici sənəd formatında əlavə edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd əlavə edilməlidir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 3 (üç) ay ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **16.08.2023-cü il saat 16:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **24.08.2023-cü il saat 16:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **25.08.2023-cü il saat 16:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin əməkdaşları MSK Katibliyi Təsərrüfat şöbəsinin müdiri Ramin Nurəliyevə qardaşı

**AZAD NURƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Özbəkistan Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanova

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi "Şirvan Araz Zavodu" MMC-nin əməkdaşı

**MEHMAN ƏHMƏDOVUN**

faciəli vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5218**
**Sifariş 1845**

**Qiyməti 40 qəpik**